

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Leyla Əliyeva COP29 çərçivəsində dəniz canlılarına dair panel müzakirələrində iştirak edib




3

SƏS

№ 212 (7137)

20 noyabr 2024-cü il.
Qiymətі 60 qəpik

# Azərbaycan ilə ICESCO arasında uğurlu əməkdaşlıq



2

*Azərbaycan ilə ICESCO arasında yüksək səviyyəli əməkdaşlıq əlaqələrinin mövcudluğu ölkəmizin İslam dünyasında qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə töhfə verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 17-də ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki ilə görüşü bu əlaqələrin daha dərinləşməsinə müsbət təsirini göstərəcəkdir.*

# Haylara baha başa gələcək SƏRT TƏDBİRLƏR



6

## UN-HABITAT ilə əməkdaşlıq məsələləri müzakirə edilib



3

## YAP nümayəndə heyətinin Çinə səfəri başa çatıb



4

## Azadlığa qovuşan Ağdamın Şəhər Günü




5

## Qoca dünyanın qocalan əhalisi: Demoqrafik təhlükə qapıda, uşaq doğumu niyə azalır?




14

## Tarixin daha bir cinayəti: Qarakənd faciəsi



11

# Azərbaycan ilə ICESCO arasında uğurlu əməkdaşlıq



***Azərbaycan ilə ICESCO arasında yüksək səviyyəli əməkdaşlıq əlaqələrinin mövcudluğu ölkəmizin İslam dünyasında qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə töhfə verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 17-də ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki ilə görüşü bu əlaqələrin daha dərinləşməsinə müsbət təsirini göstərəcəkdir.***

Dövlətimizin başçısı COP29-da iştirak etdiyinə görə ICESCO-nun Baş direktoruna minnətdarlığını bildirib. Söhbət zamanı Azərbaycan ilə ICESCO arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olunub. Bu xüsusda Prezident İlham Əliyev Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ICESCO-nun Mərakeşdə yerləşən qərargahında olmasının və Salim bin Məhəmməd əl-Maliki ilə görüşünün onda çox xoş təəssüratlar doğurduğunu vurğulayaraq, orada göstərilən qonaqpərvərliyə görə ICESCO-nun Baş direktoruna minnətdarlığını bildirib.

Xatırladaq ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ICESCO Mərakeşin Rabat şəhərində yerləşən qərargahında olarkən ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Maliklə görüşdə Heydər Əliyev Fondunun fəaliyyəti, Azərbaycan-ICESCO əməkdaşlığı, o cümlədən Fond ilə birgə layihələr müzakirə edilib.

## MƏCBURİ KÖÇKÜN QIZLAR VƏ İNTERNAT EVLƏRİ ÜÇÜN TƏHSİL VƏ SOSİAL DƏSTƏK LAYİHƏSİ

Görüşdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təsisçisi və rəhbəri olduğu IDEA İctimai Birliyi tərəfindən həyata keçirilən ekoloji layihələr barədə də məlumat verilib. Ətraf mühitin qorunması sahəsində ICESCO ilə Heydər Əliyev Fondunun gələcək əməkdaşlığı nəzərdən keçirilib. Daha sonra Heydər Əliyev Fondu ilə ICESCO arasında Burkina-Fasoda məcburi köçkün qızlar və internat evləri üçün təhsil və sosial dəstək layihəsi üzrə əməkdaşlıq sazişi imzalanıb. Layihənin məqsədi qız tələbələri lazımi resurslar, mentorluq və təhlükəsiz, dəstəkləyici mühitlə təmin etməkdir. Bu isə keyfiyyətli təhsilə çıxış, həyat bacarıqları təlimi və emosional dəstək, şəxsi inkişafı və dayanaqlığı təşviq etmək kimi məsələlərin həlli deməkdir. Layihə çərçivəsində seminarların təşkili, məktəblərdə kompüter siniflərinin və kitabxanaların yaradılması da nəzərdə tutulur. 2025-ci ilin oktyabr ayınadək davam edəcək layihə Burkina-Fasonun bir sıra şəhərlərini əhatə edəcək. Nümayəndə heyəti daha sonra ICESCO-nun Rabatdakı qərargahında yaradılan Peyğəmbər və İslam Sivilizasiyası Muzeyini ziyarət edib.

Prezident İlham Əliyevin ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki ilə görüşü zamanı əlaqələrimizin daha da möhkəmlənəcəyinə əminlik ifadə olunub, əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Azərbaycan 50-dən çox müsəlman dövlətinin təmsil olunduğu nüfuzlu beynəlxalq mədəni-humanitar qurum olan İslam dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının 1991-ci ildən üzvüdür. Həmin vaxtdan qurulmuş münasibətlər Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın 2006-cı ildə ICESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi ilə daha da genişlənib. Həmçinin, 2008-ci ilin 10-11 iyun tarixlərində, "Mədəniyyətlərarası Dialoqda Qadınların rolunun genişləndirilməsi" mövzusunda Bakıda keçirilmiş beynəlxalq forumda iştirak edən İKT Baş katibi E.İhsanoğlu humanitar sahədəki fəaliyyətinə görə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya "İKT-nin humanitar məsələlər üzrə xüsusi elçisi" statusuna dair diplom təqdim etmişdir. Əlamətdar haldır ki, İslam ölkələrinin daxil olduğu təşkilatın bu yüksək adlarına layiq görülən ilk qadın Azərbaycanın birinci xanımıdır.

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ilə ICESCO arasında da sıx əməkdaşlıq mövcuddur. Təhsil, mədəniyyət, səhiyyənin inkişafı məsələlərini prioritet kimi qəbul edən Heydər Əliyev Fondunun bu istiqamətdə gördüyü işlər və reallaşdırdığı layihələr ICESCO-nun əsas fəaliyyət istiqamətləri ilə üzlaşdığından iki qurum bir çox sahədə əlaqələrini daha da genişləndirir.

## ICESCO-NUN AZƏRBAYCAN İLƏ ƏMƏKDAŞLIĞI

Dünya təşkilatları ilə əməkdaşlıq və dostluq münasibətlərinin inkişafı ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdəndir. Müxtəlif sahələrdə qurulan əməkdaşlıq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın yaranmasına və davamlı olmasına öz təsirini göstərir. Azərbaycanın ICESCO ilə də münasibətləri möhkəm təmələ əsaslanır. 1979-cu ildə təşkil edilmiş ICESCO ilə Azərbaycan dövləti yaxından əməkdaşlıq edir və dünyada mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. Bakı şəhərinin 2009-cu il üçün İslamın paytaxtı, eləcə də Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması ICESCO-Azərbaycan münasibətlərini bir daha aydın göstərir. ICESKO rəhbərliyinin təşkilatçılığı ilə görkəmli şərqşünas alim Aida İmanquliyevanın "Müasir ərəb ədəbiyyatının korifeyləri" əsəri və "Ərəb hərfləri ilə Azərbaycan yazısı" kitabı ərəb dilində çap edilmişdir. ICESCO-nun aylıq xüsusi jurnalında Azərbaycan ilə əlaqələrə həmişə geniş yer ayrılması, 2008-ci ildə Mərakeşdə Azərbaycan mədəniyyət günlərinin keçirilməsində ICESCO rəhbərliyinin göstərdiyi hərtərəfli dəstək davamlı əlaqələrin mövcudluğundan xəbər verir. Təşkilatın rəhbəri 2006-cı ildən etibarən, respublikamızda keçirilmiş bir sıra beynəlxalq əhəmiyyətli tədbirlərdə fəal iştirak etmişdir.

## QƏTİYYƏT VƏ TƏŞƏBBÜSKARLIQ

İslam həmrəyliyinin gücləndirilməsi məqsədi ilə Azərbaycan dövləti ardıcıl olaraq siyasət yürüdür. Bildiyimiz kimi, Azərbaycan 2017-ci ildə "İslam Həmrəyliyi Oyunları"nı qəbul etdi, Ölkəmizdə Cənab İlham Əliyevin Sərəncamı ilə "İslam Həmrəyliyi İli" elan olundu. Bu, islam ölkələrinin birliyinə verilən ən böyük töhfə oldu. Bildiyimiz kimi, İslam Konfransı Təşkilatının üzvü və ya müşahidəçisi olmayan ölkə ICESCO-nun üzvlüyünə iddia edə bilməz. Bu baxımdan, müstəqil Azərbaycan "İslam dünyasının BMT - si" adlandırılan İslam Əməkdaşlıq Təşkilatın da fəal üzvüdür. Hazırda Azərbaycan təşkilatın fəal üzvlərindən biri kimi, müsəlman dünyasının üzləşdiyi cari problemlərin həllində aktiv iştirak edir. Təşkilatın qarşısında duran vəzifələrin yerinə yetirilməsində qətiyyət və təşəbbüskarlıq göstərir.

2-3 dekabr 2019-cu il tarixlərində ICESCO-nun Baş qərargahında keçirilmiş İslam Dünyası İrsi Komitəsinin növbədənkənar toplantısında Azərbaycan Respublikasının mədəni irs nümunələri - Bakının İçəri Şəhər, Qız Qalası və Şirvanşahlar Saray Kompleksi, Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi, Qobustan Qaya Sənəti Mədəni Landşaftı İslam Dünyası İrsi Siyahısına daxil edilmişdir. 29 sentyabr 2020-ci il tarixində ICESCO irs, mədəniyyət və təhsil ilə əlaqəli bir qurum olaraq Azərbaycan və Ermənistan arasındakı Qarabağ münaqişəsi ətrafında cərəyan edən son hadisələrdən, əhəmiyyətli sivil dəyərə malik arxeoloji və tarixi məkanların, o cümlədən bir sıra məscidlərin və müqəddəs tarixi yerlərə qarşı dağıntıların törədilməsindən narahatlığını bildirən bəyanatla çıxış etmişdir.

2024-cü il üzrə İslam dünyasının mədəniyyət paytaxtı seçilən Şuşada bu ilin may ayında Heydər Əliyev Fondu və ICESCO arasında mədəniyyət, elm və təhsil, yeni texnologiyaların inkişafı sahələrində təcrübə mübadiləsinin aparılmasını, eyni zamanda, birgə layihələrin icra olunmasını nəzərdə tutan əməkdaşlığa dair imzalanan memorandum da əlaqələrin genişləndirilməsi istiqamətində növbəti addım kimi dəyərləndirilir.

***Zümrüd BAYRAMOVA***

# Qərbi Azərbaycan İcması: "Avropa Şurasının bir sıra qurumları bəzi dairələrin əlində alətə çevrilib"



***Qərbi Azərbaycan İcması Avropa Şurasının Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyasının Azərbaycan tərəfindən icrasına dair Məşvərət Komitəsinin qərəzli, siyasiləşdirilmiş və mandatından kənara çıxan Beşinci Rəyini qınayır. AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.***

Qeyd olunub ki, Ermənistan tərəfindən azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləmə, mədəni irsin dağıdılması və qayıdış hüququnun pozulmasına səssiz qalmış Avropa Şurasının sözügedən qurumu öz rəyi ilə Azərbaycana qarşı şər və böhtandan ibarət mövqe sərgiləyir və azərbaycanlıları deportasiyaya məruz qoyaraq monoetnik ölkəyə çevrilmiş Ermənistana münasibətdə dəstəkləyici davranış nümayiş etdirir. Xüsusilə, Ermənistandan zorla çıxarılmış azərbaycanlıların qayıdış hüququnu görməzdən gələn Avropa Şurasının bu qurumunun, indi Qarabağdan köçmüş ermənilərin qayıdış hüququndan danışması etnik və dini ayrı-seçkiliyin ən bariz göstəricisidir.

Xatırladaq ki, Qərbi Azərbaycan İcmasının Ermənistanın insan hüquqları sahəsində Avropa Şurası çərçivəsində, o cümlədən Avropa İnsan Hüquqları Konvensiyası və Milli Azlıqların Qorunması üzrə Çərçivə Konvensiyasından irəli gələn öhdəliklərinin yerinə yetirilməsini monitorinq predmetinə çevirmək barədə Şuraya dəfələrlə etdiyi müraciətlər cavabsız qalıb. Bundan başqa, rəyin məhz indi açıqlanması onu göstərir ki, Məşvərət Komitəsi "Freedom House" kimi qondarma qurumlar, Frank Pallone kimi korrupsioner siyasətçilər kimi COP29 kontekstində daha da güclənən anti-Azərbaycan kampaniyasına qoşulub.

Bütün bunlar isə ona dəlalət edir ki, başda Parlament Assambleyası olmaqla, Avropa Şurasının bir sıra qurumları bəzi dairələrin əlində Azərbaycana qarşı siyasi oyunlar üçün alətə çevrilib. Qərbi Azərbaycan İcması Avropa Şurasının Nazirlər Komitəsindən, sözügedən məşvərətçi qurumun Azərbaycana qarşı qəbuledilməz siyasi oyunlarına, etnik və dini ayrı-seçkiliyinə son qoymağı tələb edir.




# Leyla Əliyeva COP29 çərçivəsində dəniz canlılarına dair panel müzakirələrində iştirak edib

***Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva IDEA İB və "Great Whale Conservancy" təşkilatının əməkdaşlığı çərçivəsində həyata keçirilən "Dəniz ekosisteminin sağlamlığında və iqlim dəyişikliyinin azaldılmasında dəniz məməlilərinin rolu" mövzusunda panel müzakirələrində iştirak edib.***



AZƏRTAC xəbər verir ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində təşkil olunan tədbirdə çıxış edən Leyla Əliyeva dəniz canlılarının ekoloji balans və iqlim dayanıqlılığının təmin edilməsi baxımından əhəmiyyətini vurğulayıb.

Dünyanın ən iri məməliləri olan balinaların karbon dioksidinin atmosferdə miqdarının azaldılmasında oynadığı rolu vurğulayan Leyla Əliyeva bildirib ki, 1985-ci ildə qüvvəyə minən müvafiq moratoriuma baxmayaraq, balina ovu hələ də bir sıra ölkələr tərəfindən davam etdirilməkdədir.

Daha sonra Xəzər suitilərinin populyasiyasının XX əsrin əvvəli ilə müqayisədə 6 dəfəyə yaxın azalması panel iştirakçılarının diqqətinə çatdırılıb.

IDEA tərəfindən ötən 13 il ərzində icra olunan fəaliyyətlərə toxunan Leyla Əliyeva gənclər və geniş auditoriya üçün həyata keçirilən məlumatlandırma tədbirləri, könüllülərin iştirakı ilə baş tutan sahilyanı ərazilərin təmizlənməsi aksiyaları, balıq körpələrinin suya buraxılması və Xəzər dənizinin unikal biomüxtəlifliyinin qorunmasına yönələn bir sıra digər tədbirləri qeyd edib.

Panel müzakirələrinin davamında "Great Whale Conservancy" təşkilatının təsisçisi və direktoru Maykl Fişbax və Həsən bəy Zərdabi adına Təbiət Tarixi Muzeyinin baş direktoru Tariyel Eybatov müxtəlif dəniz canlıları, o cümlədən balinaların və suitilərin dəniz ekosistemi üçün əhəmiyyəti və su hövzələrinin çirklənməsinin ətraf mühitə təsiri barədə tədbir iştirakçılarına ətraflı məlumat veriblər.






# UN-HABITAT ilə əməkdaşlıq məsələləri müzakirə edilib

## *Samir Nuriyev Anaklaudia Rossbaxın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb*

***Noyabrın 19-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, COP29 üzrə Təşkilat Komitəsinin sədri Samir Nuriyev COP29 çərçivəsində ölkəmizdə səfərdə olan Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramının (UN-HABITAT) icraçı direktoru xanım Anaklaudia Rossbaxın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. SİA xəbər verir ki, görüşdə A.Rossbax COP29-un yüksək səviyyədə təşkil olunması münasibətilə Azərbaycanı təbrik edib və sədrlik fəaliyyətində ölkəmizə müvəffəqiyyətlər arzulayıb.***

S.Nuriyev Azərbaycan ilə UN-HABITAT arasında əməkdaşlığı və ölkəmizin COP29 Sədrliyinin fəaliyyət gündəliyinin prioritetləri sırasında urbanizasiya mövzusunun yer almasını məmnunluqla qeyd edib.

Görüşdə Azərbaycan ilə UN-HABITAT arasında həyata keçirilmiş faydalı əməkdaşlıq çərçivəsində 2022-ci ildə Ağdam şəhərində, 2023-cü ildə Zəngilanda Milli Şəhərsalma forumlarının və Bakıda "Ümumdünya Məskunlaşma Günü" tədbirlərinin uğurlu təşkili vurğulanıb.

S.Nuriyev qlobal və regional tədbirlərin yüksək səviyyədə təşkil edilməsində böyük təcrübəyə malik Azərbaycanın 2026-cı ilin mayında BMT-nin ən vacib tədbirlərindən biri olan 13-cü Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi etməsinin Azərbaycan ilə UN-HABITAT arasında səmərəli əməkdaşlığın təzahürü olduğunu bildirib. A.Rossbax ölkəmizin UN-HABITAT-ın fəaliyyətinə göstərdiyi dəstəyi və verdiyi könüllü maliyyə töhfələrini yüksək qiymətləndirib. Görüşdə, həmçinin işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpasından, orada keçmiş məcburi köçkünlərin dayanıqlı məskunlaşmasının təmin edilməsi istiqamətində aparılan işlərdən bəhs olunub, UN-HABITAT ilə bu sahədə əməkdaşlıq məsələləri müzakirə edilib.



Bundan əlavə, 2026-cı ildə Bakıda keçirilməsi planlaşdırılan Ümumdünya Şəhərsalma Forumu ilə əlaqədar hazırlıq işlərinə dair ətraflı fikir mübadiləsi aparılıb.

# YAP nümayəndə heyətinin Çinə səfəri başa çatıb















***Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasına səfəri çərçivəsində Nantun şəhərində Çin Kommunist Partiyası (ÇKP) Sucian ərazi təşkilatı, Sucian kənd muzeyi, Pilotsuz Avtomobillərin Elmi-Texniki Mərkəzi ilə tanışlıqdan sonra Şanxay şəhərinə yola düşüb.***

ÇKP Şanxay şəhər komitəsində və Şanxay şəhər Partiya məktəbində keçirilmiş görüşlərdə dostluq, qarşılıqlı faydalı əməkdaşlıq və etibarlı strateji tərəfdaşlıq müstəvisində inkişaf edərək keyfiyyətcə yeni mərhələyə yüksələn Azərbaycan-Çin münasibətlərinin aktual çağırışlara cavab verməklə müasir beynəlxalq münasibətlər sisteminin mühüm reallığı olduğu diqqətə çatdırılıb.

Hər iki ölkənin bir-birinin dövlətçilik mənafelərinə uyğun işbirliyinə yüksək dəyər verdiyi və müxtəlif sahələri əhatə edən əlaqələrin genişlənməsində maraqlı olduğu vurğulanıb. Bildirilib ki, qlobal siyasi proseslərə təsir etmək imkanına malik, dövlətlərarası münasibətlərin milli maraqlar və beynəlxalq hüquq normaları əsasında inkişafının tərəfdarı olan Azərbaycan ilə Çin Avrasiyada daimi sülh, dayanıqlı təhlükəsizlik və perspektivli əməkdaşlıq üçün məqsədyönlü siyasət həyata keçirir.

Vurğulanıb ki, iki ölkənin beynəlxalq müstəvidə bir-birinin maraqlarını müdafiə etməsi, o cümlədən Şanxay Əməkdaşlıq Təşkilatı və BRICS platforması çərçivəsində əməkdaşlığı diqqət mərkəzində saxlaması ciddi geosiyasi dəyişikliklərlə müşayiət olunan yeni reallıqlar fonunda olduqca mühüm əhəmiyyətə malikdir.

2024-cü ilin iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin qəbulunun müstəqil siyasət həyata keçirən iki dövlətin ortaq iradəsini ifadə etməklə gələcəyə yönəlik çox önəmli addım olduğu diqqətə çatdırılıb. Vurğulanıb ki, Bəyannamədə qeyd edildiyi kimi, tərəflər siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığı genişləndirməyə, beynəlxalq məsələlərdə qarşılıqlı fəaliyyəti gücləndirməyə, iki ölkənin ümumi maraqlarını birgə qorumağa, həmçinin regional və qlobal sülh, sabitlik və inkişaf fəaliyyətini irəlilətməyə dair razılıq əldə ediblər. Bu, Azərbaycan ilə Çinin bir-birini prioritet və etibarlı tərəfdaş hesab edərək strateji hədəflərini ardıcıl olaraq gerçəkləşdirmək əzmini göstərir. Qeyd olunub ki, Birgə Bəyannamədə əksini tapan mühüm məsələlərdən biri də YAP ilə ÇKP arasında əlaqələrin gücləndirilməsidir ki, bu da Azərbaycan-Çin münasibətlərinin inkişafına əhəmiyyətli töhfələr verəcəkdir.

Diqqətə çatdırılıb ki, əlaqələri yüksək səviyyədə saxlamaq, mütəmadi olaraq nümayəndə heyətlərinin qarşılıqlı səfərlərini təşkil etmək, ümumi maraq doğuran məsələlər üzrə təmasları gücləndirmək qarşıda duran başlıca vəzifələrdəndir. Bildirilib ki, memorandumdan irəli gələrək humanitar mübadiləni zənginləşdirmək, təhsil sahəsində, kütləvi informasiya vasitələri, regional hakimiyyət orqanları, ictimai təşkilatlar və s. arasında ikitərəfli əlaqələrin partiyalararası platformalarının yaradılması da xüsusi diqqət mərkəzində saxlanılacaqdır.

Hər iki ölkədə gənclərlə işin dövlət siyasətinin mühüm istiqamətlərindən biri olduğu vurğulanaraq gənclərin ictimai-siyasi sahədə, o cümlədən dövlət idarəçiliyi və partiya həyatında fəal iştirakına xüsusi önəm verildiyi bildirilib. Gənclərlə siyasi-ideoloji işin əhəmiyyətindən bəhs edilərək bu istiqamətdə aidiyyatı təhsil müəssisələri arasında faydalı təcrübə mübadiləsinin aparılmasının mövcud reallıqlar və çağırışlar fonunda önəmi diqqətə çatdırılıb. Azərbaycanın sosial-iqtisadi inkişaf modeli və Çin xüsusiyyətli sosializm haqqında da ətraflı məlumatın verildiyi görüşlərdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

Şanxay şəhərinə səfər çərçivəsində Çin Kommunist Partiyasının Birinci Qurultayı Muzeyi, Suhey xidmət mərkəzi, "Şərqin mirvarisi" teleqülləsi, Çjanbay mikrorayonu, Qlobal Ticarət Limanı və Suca çayı sahilindəki tarixi məhəllə də ziyarət edilib.

# Azadlığa qovuşan Ağdamın Şəhər Günü

*27 il sonra Ağdam işğaldan azad olundu və Azərbaycan öz haqqına qovuşdu. Bu gün Ağdam yeni günün yaşayır və işğaldan azad olunan Ağdamımızda abadlıq-quruculuq işləri həyata keçirilir. Prezident İlham Əliyevin ötən ilin iyulun 31-də imzaladığı Sərəncama əsasən, noyabrın 20-də Ağdam Şəhəri Günüdür. Bu əlamətdar günün təsis olunması Ağdam şəhərinin Ermənistan silahlı qüvvələrinin işğalından azad edilməsi tarixi ilə bağlıdır. Belə ki, bu gün - noyabrın 20-də şəhərin erməni işğalçılarından təmizlənməsindən 4 il ötür.*

Azərbaycanın Vətən müharibəsində qazandığı parlaq qələbə nəticəsində Ağdam bir güllə atılmadan düşmən tapdağından azad olunub. Belə ki, 2020-ci ilin sentyabrın 27-dən başlayaraq Azərbaycan Ordusu ölkəmizin əzəli torpaqlarının azadlığı uğrunda genişmiqyaslı əks-hücum əməliyyatlarına başlayıb. Hərbi əməliyyatlar zamanı uzun illər işğal altında olan torpaqlar Azərbaycan Silahlı Qüvvələri tərəfindən kənd-bəkənd, qarışbaqarış azad edilib. Ağdam rayonunun işğaldan azad olunması 2020-ci ilin noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın nəticəsində baş tutdu. Noyabrın 10-da Prezident İlham Əliyev xalqa müraciətində qeyd etdiyi kimi, bu bəyanatın imzalanmasının səbəbi noyabrın 9-da Dövlət Bayrağı Günündə bizim növbəti şanlı hərbi qələbəmiz olub:"Çünki noyabrın 9-da 72 yaşayış məntəqəsini Azərbaycan Ordusu işğalçılardan azad edib. Şuşanın azad edilməsi, noyabrın 9-da 72 yaşayış məntəqəsinin azad edilməsi və sentyabrın 27-dən bu günə qədər 300-ə yaxın yaşayış məntəqəsinin azad edilməsi ilə Ermənistan ordusunun belini qırmışıq. Paşinyan məcbur olub bu bəyanata öz imzasını atır. Amma çox miskin, çox acınacaqlı durumda. Mən isə böyük fəxarət və sevinc hissi ilə bu bəyanata öz imzamı atmışam. Çünki bu bəyanat uzun illər davam edən işğala son qoyur. Bu bəyanat imkan verir ki, hələ də işğal altında olan digər rayonlarımızı - Ağdam, Laçın, Kəlbəcər rayonlarını qan tökülmədən qaytaraq. Qısa bir müddət qoyulur, bu ayın sonuna qədər bu rayonlar bizə qaytarılır". Bəli, beləliklə, 27 ildən sonra günəş şüaları ilə nurlanmış ağ ev Ağdam Azərbaycana qaytarıldı. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə məhəl qoymayan Ermənistan öz işğalçı siyasətini davam etdirsə də Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə torpaqlarımız işğaldan azad edildi. 27 il Ağdam şəhəri də daxil olmaqla ərazisinin böyük bir hissəsi erməni işğalı altında olan ərazimiz, əzəli torpaqlarımız sahiblərinə qaytarıldı. "Bütün binalar, bütün kəndlərdəki evlər, ictimai binalar ermənilər tərəfindən dağıdılıb. Bu, misli görünməmiş barbarlıqdır, vandallıqdır, vəhşilikdir. Bu, erməni faşizminin eybəcər sifətinin göstəricisidir. Bütün dünya bunu görməlidir və görür. Biz bundan sonra da xarici vətəndaşları buraya dəvət edəcəyik. Onlar gələcəklər və erməni vəhşiliyi nədir onu görəcəklər"- deyə Prezident Ağdama səfəri zamanı çıxış edərkən bildirmişdir.

### "BUGÜNKÜ AZƏRBAYCAN BÜTÜN TARİX BOYUNCA ƏN QÜDRƏTLİ AZƏRBAYCANDIR"

Ermənilər nə qədər vandallıq əməlləri törətsələr də, xalqımıza məxsus dini-mədəniyyət abidələrini, yaşayış evlərini, infrastrukuru dağıtmış olsalar da, tarixi həqiqət qələbə çaldı. Bu gün nəinki, Ağdamda eləcə də işğaldan azad olunan digər ərazilərdə böyük abadlıq-quruculuq işləri aparılır. Azərbaycan Prezident İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Bu gün misli görünməmiş bərpa işləri aparılır. Nəyin hesabına? Məhz hazırlıq hesabına. Ona görə biz güclü dövlət yaratmışıq, Mən son illərdə dəfələrlə demişdim və bax, həyat mənim sözümü təsdiqlədi ki, bugünkü Azərbaycan bütün tarix boyunca ən qüdrətli Azərbaycandır və çoxəsrlik tarixində heç vaxt Azərbaycan indiki qədər güclü olmamışdır".Görülən işlər hazırlanmış layihələr, şəhərlərin baş planı əasında sistemli olaraq reallaşır. Hər qarışında tariximizin izi olan bu ərazilərdə böyük bir xalqın izi, imzası vardır. 30 ilə yaxın işğal altında olan ərazilərimizdə sürətlə aparılan abadlıq və quruculuq işləri burada yeni müasir məkanlarımız olacağından xəbər verir. Əlbəttə ki, bu ərazilərdən erməni vandallarının izlərini silib atsaq da tariximizdə, yaddaşımızda onların törətdikləri çirkin əməlləri silinməyəcək.

### YENİ REALLIQLAR YARADAN AZƏRBAYCANIN DİNAMİK İNKİŞAF DÖVRÜ

Bu gün ermənilərin viran qoyduqları ərazidə irimiqyaslı layihələr icra olunur. Ağdam şəhərinin təsdiq edilmiş Baş planına uyğun olaraq, əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması ilə yanaşı, burada işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması hədəfinə uyğun olaraq, məhəllədəki binaların enerji təchizatında alternativ enerji mənbələrindən istifadə üzrə konseptual həllər işlənmişdir. Ölkə başçısının gördüyü işlər, həyata keçirdiyi bütün layihə və proqramlar, ilk öncə milli maraqları özündə əks etdirir. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Bu gün Azərbaycanda güclü dövlət idarəçiliyi mövcuddur. Yeni reallıqlar yaradan Azərbaycan dinamik inkişaf dövrünü yaşayır. 44 günlük Vətən müharibəsində qazandığımız şanlı Zəfərdən sonra yaranmış yeni reallıqlar fonunda Azərbaycan gələcək inkişaf strategiyasını dövrün tələblərinə uyğun olaraq müəyyənləşdirib. Uzaqgörən qərarları ilə Azərbaycan Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir irimiqyaslı layihələri ilə müasir dünyamızda etibarlı tərəfdaşlarından birinə çevrilib. İşğal altından azad olunan ərazilərimizdə abadlıq-quruculuq işələri sürətlə davam etdirilir. Ermənilərin xarabalığa çevirdiyi məkanlarda yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı işlər uğurla davam etdirilir.

Artıq görülən işlərin məntiqi nəticəsi olaraq Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış ardıcıl olaraq həyata keçirilir.

### AĞDAMIN TARİXİNDƏ YENİ SƏHİFƏ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ağdam rayonuna səfərləri və burada yeni müəssisələrin təməllərinin qoyulması tezliklə Ağdamın müasir bir məkana çevriləcəyindən və sakinlərinin əzəli torpaqlarına qayıdacağından xəbər verir. Səfərlər çərçivəsində dövlətimizin başçısının görülən işlərlə tanışlığı və yeni təməllərin qoyulması, tapşırıq və göstərişlərin verilməsi Ağdamın tezliklə qurulmasının göstəricisidir. Artıq Ağdam rayonunun Xıdırlı və Kəngərli kəndlərinin dövlət başçısı tərəfindən təməli qoyulub.

Ağdam şəhərindən 6 kilometr məsafədə yerləşən Kəngərli kəndində 2626 nəfərin (639 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 177,2 hektardır. Burada məskunlaşacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 66,2 hektar torpaq sahəsinin ayrılması nəzərdə tutulub. Əlbəttə ki, dövlət başçısının Ağdam rayonuna səfərləri bu ərazidə görülən işlərin daha sürətli reallaşmasının təzahürüdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam Sənaye Parkında müxtəlif təyinatlı ayaqqabıların istehsalı zavodunun, Ağdam Sənaye Parkında Avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı zavodunun, Ağdam Sənaye Parkında Dam örtükləri istehsalı zavodunun açılışlarında iştirak edib.

### İMARƏT KOMPLEKSİ BƏRPADAN SONRA

Artıq Ağdamda İmarət Kompleksi bərpadan sonra açılışı olub. Qeyd edək ki, Ağdam rayonunda erməni vandalizminə məruz qalan tarixi-memarlıq abidələrindən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın sarayıdır. XVIII əsrə aid bu tarix-memarlıq abidəsi Azərbaycan ərazisində yayılmış digər xan saraylarından fərqlənərək dəbdəbəli ev xüsusiyyəti daşıyıb. İşğal altında olmuş ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi, Pənahəli xanın imarəti də işğalçılar tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb. Burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar - İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarı olub. Qarabağ xanlarının nəslindən olan digər görkəmli şəxslər də bu qəbiristanlıqda dəfn edilib. Lakin Ağdam şəhəri işğal olunduqdan sonra qəbiristanlıq da erməni vandalizminə məruz qalıb. Prezident İlham Əliyevin müvafiq tapşırığına uyğun olaraq Pənahəli xanın sarayının yerləşdiyi "İmarət" Kompleksinin bərpa edilməsi üçün işlərə başlanılmışdır. Kompleks ümumilikdə 3,3 hektar ərazini əhatə edir. "İmarət" Kompleksindəki tarixi qəbiristanlıqda mövcud beş türbə qalığı tədqiqat sahəsinə daxil edilib. Türbələrin içi və ətrafı erməni işğalçılarının bu abidələrin daxilində qurduğu donuzçuluq təsərrüfatının tullantılarından və digər qalıqlardan təmizlənib. Artıq Ağdam şəhərindəki İmarət Kompleksinin bərpadan sonra açılışı olub.

Ağdamda reallaşan layihələr baş planına uyğun olaraq həyata keçirilir. Ağdam şəhərinin təsdiq edilmiş Baş planına uyğun olaraq, əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması ilə yanaşı, burada işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması hədəfinə uyğun olaraq, məhəllədəki binaların enerji təchizatında alternativ enerji mənbələrindən istifadə üzrə konseptual həllər işlənmişdir. Artıq burada 2-ci yaşayış məhəlləsi salınır. Ümumi sahəsi 14 hektara yaxın olan yaşayış məhəlləsinin ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq. Məhəllə Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınacaq. Bu məhəllədə tikiləcək yaşayış binalarında ümumilikdə 1268 mənzil olacaq. Mənzillərdən 114-nün birotaqlı, 464-nün ikiotaqlı, 536-nın üçotaqlı, 154-nün isə dördotaqlı olması planlaşdırılır.




### "BU İL O YAŞAYIŞ MƏNTƏQƏLƏRİNİN SAYI 20-YƏ ÇATACAQ"

Əlbəttə ki, Ağdamda aparılan abadlıq-quruculuq işləri çərçivəsində şəhərin daxili yollarında aparılan işləri də qeyd etməliyik. Ağdam şəhərinin Baş planına əsasən şəhərin daxili yollarının ümumi uzunluğu 189,7 kilometr təşkil edir. Şəhərin daxili yol və kommunikasiya şəbəkəsinin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub. Ağdam şəhərinin daxili yollarının 6 tip en kəsiyinə uyğun tikilməsi nəzərdə tutulub. Hər bir tip en kəsiyinin əhəmiyyətinə uyğun olaraq, hərəkət zolaqlarının sayı 2-8 ədəd, yaşıllıq zolağının eni 1,5-3 metr, velosiped zolağının eni 1,5 metr, piyada zolağının eni isə 4-6 metr təşkil edir. Bu yolların birinci mərhələdə uzunluğu 58,7 kilometr təşkil edən hissəsi müsbət ekspertiza rəyi alıb.

Magistral şəhər yollarının uzunluğu 17,5 kilometrdir. Eni 55-60 metr təşkil edəcək bu yol 6-8 hərəkət zolağından ibarət olacaq. Ümumşəhər əhəmiyyətli yolların uzunluğu 50, yerli əhəmiyyətli yolların ümumi uzunluğu isə 122,2 kilometr təşkil edəcək. Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq Ağdam şəhərinin daxili yollarının tikintisi 2026-cı ildə başa çatdırılacaq.

Xatırladaq ki, ötən il Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra edilən yol infrastrukturu layihələrindən biri olan Bərdə-Ağdam avtomobil yolu istifadəyə verilib.

Hazırda Ağdamda bərpa-yenidənqurma işləri aparılır, yeni infrastruktur qurulur, şəhər dirçəldilir. Belə ki, Vətən müharibəsindən sonra rayon ərazisində infrastrukturun bərpasına və yenidənqurma işlərinə başlanılıb. İndi yenidən qurulmaqda olan şəhər özünün əzəli sakinlərinin - ağdamlıların yolunu gözləyir. "Artıq beş yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıtmışlar. Bu il o yaşayış məntəqələrinin sayı 20-yə çatacaq", - deyə Prezident bildirmişdir: "Malıbəyli, Kərkicahan, Şuşanın Turşsu kəndləri də bərpa ediləcək. Ağdam şəhəri bərpa olunur və gələn il Ağdama da ilk köç başlanacaq. Yəni, quruculuq işləri geniş vüsət alır".

Möhtərəm Prezidentimiz İlham Əliyevin sözləri ilə desək, hər zaman Azərbaycan zəfər çalsın, hər zaman - əgər lazım olarsa, həm döyüş meydanında, həm iqtisadi sahədə, həm siyasi müstəvidə, hər bir yerdə Azərbaycan həmişə zirvələrdə olsun!

***Zümrüd BAYRAMOVA***



# Haylara baha başa gələcək SƏRT TƏDBİRLƏR

***Uzun zamandır ki, rəsmi İrəvan özünün Qərbə meyilli mövqeyi və Rusiya əleyhinə siyasəti ilə Moskvanı bərk qıcıqlandırmaqdadır. Haylar özləri belə bunun nəticələrinin onlar üçün ağır olacağına əmindirlər. Əmindirlər ki, rusların səbri tamamilə tükəndiyi zaman sərt tədbirlərə əl atmalı olacaqlar. Bu isə, bütövlükdə Ermənistan və erməni cəmiyyəti üçün çox acınacaqlı sonluq deməkdir.***

### İndi artıq sərt tədbirlərə əl atılacağı gözləniləndir və bu barədə xəbərdarlıq belə olunub

Artıq səbr də qalmayıb və rusların "yumşaq siyasət" ilə davam etməyəcəyi özünü göstərməkdədir. Məhz ermənilər də bunu çoxdan başa düşüblər və onları qorxuya salan da budur. Xüsusən də Rusiya Xarici Kəşfiyyat Xidmətinin bu yaxınlarda qalmaqallı bəyanatla çıxış etməsi hayların kürkünə birə salıb. "ABŞ Dövlət Departamenti Ermənistanda qərbyönlü vətəndaş cəmiyyətinin strukturlarının stimullaşdırılması üzrə işləri sürətləndirib və Ukraynada, Moldovada sınaqdan keçirilən sxemlər Vaşinqtonu israrla milli intihara doğru sürükləyir", deyə bəyanatda qeyd olunması ermənilərin yuxularını ərşə çəkib. "Ermənistan hökumətinin işini Qərbin maraqlarına uyğunlaşdırmaq üçün bütün tədbirlərə əl atılır", fikri də rəsmi İrəvan üçün ciddi xəbərdarlıqdır.

Artıq açır şəkildə iddia olunur ki, bu məqsədlə Dövlət Departamentinə bağlı strukturlara Ermənistan departamentlərinin nümayəndələri üçün təlim kurslarını genişləndirmək və orada xarici müşavirlərin olmasını təmin etmək tapşırılıb. "Ermənistandakı ictimai-siyasi proseslərə davamlı anti-Rusiya xarakteri vermək" kimi rəsmi İrəvanın niyyətinin olduğu da iddia edilir və bu çox ciddi ittiham sayılır. Əslində, haylar bu ittihamın nə demək olduğunu yaxşı başa düşürlər. Başa düşürlər ki, belə ittihamların ardınca müvafiq tədbirlər görülməsi planlaşdırıla bilər və bunun da aqibətini düşünəndə ermənilərin tükləri biz-biz durur. Çünki başa düşürlər ki, indi artıq sərt tədbirlərə əl atılacağı gözləniləndir.

Diqqətə çatdıraq ki, rəsmi mənbələrin məlumatına görə, Rusiya Xarici Kəşfiyyat Xidmətinin nümayəndə heyəti yuxarıda qeyd edilən açıqlamadan əvvəl Ermənistanda olub və bəzi təşkilatların, eləcə də dövlət məmurlarının anti-Rusiya təbliğatı üçün Qərbdən hansı maliyyə vəsaiti aldıqları barədə də onlarda olan məlumatları təqdim ediblər. Hətta xaricdən daxil olan pul axınının qarşısını almaq üçün Gürcüstandan nümunə götürərək, Ermənistanda "Xarici agentlər haqqında" qanunun qəbul edilməsinə eyham da vurulub. Əks halda, Rusiyanın Qafqazda öz təsirini, eləcə də mövqeyini sərt tədbirlərlə bərpa etməsinin mümkün variant olduğu xəbərdarlığı da edilib.

### Çaşqın vəziyyətdə olan Paşinyanın hakimiyyət komandası üzləşəcəyinin fərqində olsa düşdüyü acınacaqlı vəziyyəti təsəvvür edə bilər

Ermənistanın hazırki hakimiyyəti çaşqındır, Paşinyanın hakimiyyət komandası başını tamamilə itirib və onlar nə edəcəklərini belə bilmirlər. Doğrudur, onların yeganə dırnaqarası "bacarığı" bütün çətin vəziyyətlərdə, dalana dirəndiklərində bəhanə tapmaq bacarığıdır və elə zənn edirlər ki, bu dəfə də hansısa bəhanə ilə vəziyyətdən çıxa bilərlər. Amma yanılırlar və sərt tədbirlərə əl atıldığında onlar üçün çox gec olacağının deyəsən fəraində deyillər. Bəli, Nikol Paşinyanın və onun komandasının son 6 il ərzində ən inanılmaz bəhanələri az eşitməmişik. Sözsüz ki, həmin bəhanələrə inanan və qəbul edən insanların olması belə onların böyük aldatma qabiliyyətindən xəbər verir. Amma bu dırnaqarası "qabiliyyət" daha keçərli deyil və artıq keçərli olmaması fonunda da nələrin gözlənilən olması təsəvvürü haylar üçün dəhşətli sayılır. Hər dəfə axmaq, əsassız izahatlarla yaxalarını kənara çəkməyə çalışanlar indi hansı durumda olduqlarının fərqində olsalar daha yaxşı olar. Fərqində olsalar ki, daha dəyişən dünya, siyasi təlatümlər və qarşısıalınmaz təlatümlər fonunda bəhanələri onları qurtara bilməyəcək, Ermənistan hakimiyyətinin düşdüyü acınacaqlı vəziyyəti təsəvvür edə bilərlər.

### Sərt tədbirlər haylara çox "baha" başa gələcək

Düz dörd ildir ki, Ermənistan hakimiyyəti utanmadan yalandan sülhdən dəm vurur. Özü də təkcə öz ölkəsi daxilində, daxili audutoriya önündə deyil, məhz beynəlxalq platformalarda belə sülhdən ağız dolusu danışır. Elə danışır ki, guya böyük həvəslə və çox səbrsizliklə sülhə tələsir. Əslində isə, bunun əksini görürük. Görürük ki, dörd ildir sülhdən danışıb nəticədə də ölkəni sürünən müharibə ocağına çevirməyi bacaran Paşinyanın hakimiyyət komandası öz ölkəsi üçün çox böyük fəlakətlərə əsaslı zəmin yaradıb. Regionda ancaq qarışıqlıq yaratmaq üçün bütün əməllərə əl atan rəsmi İrəvanın səyləri Kremlin də diqqətindən yayınmayıb. Cənubi Qafqazı istənilən anda Qərb üçün "meydana" çevriməyə belə razı olan haylar indi rusların hədəfinə çevriliblər. Çünki əsrlər boyu bölgədə özünə yer eləmiş ruslar erməni şıltaqlığı səbəbindən əldə etdikləri "yeri" itirmək təhlükəsini belə qəbul etmək niyyətində deyillər. Lazım gəldikdə ruslar həmin "yer" uğrunda hayların özlərini də "güdaza" verməyə hazırdırlar. Bunu dərk edən ermənilər bilirlər ki, məhz elə sərt tədbirlərə də bu məqsədlə istənilən anda əl atıla bilər.

Ruslar görürlər və müşahidə edirlər ki, rəsmi İrəvan əvvəlcə Azərbaycanın ərazi bütövlüyünü tanıyır, amma bununla yanaşı, Qərbə üz tutaraq, Avropanın ətəyindən yapışaraq, yenidən ərazi iddialarını ortaya atır. Görürlər ki, Rusiyanın da iştirak etdiyi üçtərəfli danışıqlara nə Nikol Paşinyan, nə onun hakimiyyət komandası, nə də erməni cəmiyyəti məhəl qoymur və Qərb tərəfindən çalınan mahnıya hayların oynamaq niyyəti də açıq-aşkar şəkildə ortadadır. Bu isə o deməkdir ki, ermənilər 44 günlük müharibədə ruslardan istifadə edərək canlarını qurtardıqdan sonra onları heç veclərinə də almırlar və bu da Kreml üçün qəbul edilə bilməz. Rəsmi Moskva artıq çoxdandır fərqindədir ki, Paşinyan hakimiyyəti Ermənistanı bütün müttəfiqlərdən məhrum etməkdə, onların özlərini də tənqid etməkdə və rusların düşmənlərinə yaltaqlanmağa davam etməkdədir. Hər halda haylar başa düşməlidirlər ki, bu məsələyə ruslar biganə qala bilməyəcəklər. Başa düşməlidirlər ki, istənilən halda Rusiya bu məsələyə "aydınlıq" gətirəcək, amma aydınlıq gətirildiyində haylar üçün çox gec olacaq. Çünki bu dəfə yumşaq siyasət olmayacaq, sərt tədbirlərə əl atılacaq və bu da haylara çox "baha" başa gələcək.

***İnam Hacıyev***

TƏHLİL



Mətanət Məmmədova

# UŞAQLARIN dünyaya müraciəti

***Müharibə hərislərinə, torpaq acgözlərinə, mənfəət sevdalılarına üz tutub deyirik ki, rəhm edin bizə. Sizi and veririk Allaha, rəhm edin!***

Biz nə üçün siz böyüklərin əlində oyuncağa çevrilməliyik? Nə üçün hər bir müharibədə, münaqişədə qurban biz olmalıyıq? Nə üçün bizə rəhm etmirsiniz? Nə üçün dinc, sakit həyatımızı əlimizdən alırsınız?

Biz gecənin yarısında atdığınız bombaların səsindən nə üçün qan-bağır olmalıyıq? Nə üçün valideynlərimiz bizi gecənin şirin yuxusundan silkələyərək oyadıb ayaqyalın, çılpaq meşələrə, dağlara, düzənliklərə doğru sürüməlidirlər? Nə üçün yollarda acından məhv olmalıyıq? Nə üçün sizin qurbanınıza çevrilib əzizlərimizə kədər, qəm yaşatmalıyıq? Nə üçün ata-anamızın gözü qarşısında bizə qıyırsınız? Nə üçün bizim gözümüz qarşısında valideynlərimizi min bir işgəncə ilə öldürürsünüz?

Nədir bizim günahımız? Bu dünyaya müharibə və "müharibələrin" acısını, fəlakətini yaşamaq üçün gəlmişik, yoxsa siz "əmilərin" arzularına qurban olmaq üçün? Siz hegamon olacaqsınız, xalqları əzib öz niyyətinizə çatacaqsınız deyə, biz nə üçün bu fəlakətləri yaşamalıyıq? Nə üçün evlərimiz yandırılmalı, ata-anamız öldürülməli, bacı-qardaşlarımızdan ayrı düşməliyik, aclığa tab gətirə bilməyən həmyaşıdlarımızı gözlərimiz qarşısında itirməliyik?

Nə üçün? Nə üçün biz sizə görə isti yuvamızdan, rahat yatağımızdan didərgin düşməliyik? Harada qaldı qələmlərimiz, şəkil dəftərimiz, oyuncaqlarımız? Bilirsinizmi, onları atamız bizə yenicə almışdı. Rəsm çəkəcəkdik. Hələ atamıza söz də vermişdik ki, onun da şəklini çəkək. Lakin siz onları əlimizdən aldınız, onlar çəkəcəyimiz rəsmi görmədən dünyadan köçdü...

O oyuncaq maşını bizə almaq üçün dünən öldürdüyünüz atamız düz bir ay işdən sonra əlavə işləmişdi. O gəlinciyi anamız bizə almaq üçün neçə günlər evlərdə xidmətçilik etmişdi, bilirsinizmi? Bilməzsiniz siz. Bunların heç birini bilməzsiniz. Çünki siz biz yaşadığımızın bircəsini belə yaşamamısınız. Maraqlıdır, siz ata deyilsiniz? Oğlunuz, qızınız yoxdur. Bəlkə də var. Varsa, onlar da bizim kimi yazıqdır. Sizin yazıq etdiyiniz uşaqların hər biri kimi yazıqdırlar. Yoxdursa, övladınız, bu, lap əla. Yaxşı ki, yoxdur. Olsa idi, bizə yaşatdıqlarınızı onlar da yaşayacaqdı. Biz qədər ağır, məşəqqətlə yaşamasalar da, yaşayacaqdılar. Çünki müharibə heç bir uşaqdan təsirsiz ötmür. Biz ya qurban oluruq, ölürük, öldürülürük, didərgin salınırıq, ya səfalət içərisində yaşamağa məhkum edilirik, aclıqdan dünyamızı dəyişirik, ya da uzaqdan televizor vasitəsilə həmyaşıdlarımızın aqibətini izləyirik. İzlədikcə də psixologiyamız pozulur, zədələnir, uşaq dünyamız yıxılır...

Siz müharibə və "müharibələri" davam etdirdikcə, bizi itirirsiniz. İtirmək tək o deyil ki, minlərlə uşaq müharibələrin qurbanı olur. İtirmək həm də yaşaya-yaşaya itirməkdir. Bir uşağın ki, psixologiyası zədələnir, o, ölü kimidir, yaşasa nəyə dəyər...

Ay "əmilər", insafa gəlin, yandırmayın, süngüləməyin kiçik bədənimizi. Dağlamayın sinəmizi. Almayın əlimizdən oyuncaqlarımızı. Almayın ata-anamızı. Salmayın bizi evimizdən uzaqlara... Ay "əmilər", insaf edin, bəsdir, müharibələrdən bezdik, usandıq. Biri bitir, o biri başlayır. Bir gün müharibəsiz dünyamız olmur. Yetər!

Nə vaxt gözləriniz doyacaq dünya malından? Nə vaxt? Axı bu dünya sizə də qalan deyil. Bir gün bizim kimi, siz də bu dünya ilə vidalaşacaqsınız. Minlərlə, milyonlarla günahsız uşağa etdiyiniz bu sitəmlərə Allah qarşısında necə cavab verəcəksiniz?

Etməyin müharibə və "müharibələr", savaşlar... Qıymayın bizim düzənimizə, nə olar? Dünyamızı qaraltmayın. Bizi dünyaya gəlməyə peşman etməyin, nə olar...

Heç olmasa bu gün-20 noyabr Ümumdünya Uşaq Haqları Günündə səsimizi eşidin, bizi dinləyin və düşünün!

# Azərbaycana qarşı QISQANCLIQ

***Azərbaycan uğurlar əldə etdikcə, nailiyyərlər qazandıqca, qələbələrə imza atdıqca bir çoxlarının kürkünə yamanca birə düşmüş olur. Rəsmi Bakının uğurları kimlərinsə xoşuna gəlmir. Ölkəmizin apardığı məqsədyönlü siyasət bəzilərinin yuxusunu ərşə çəkir. Ortada olan qısqanclıq məhz bunun təkzibedilməz sübutudur.***

### Ortada olan ölkəmizə qarşı barışmaz mövqedən başqa bir şey deyil

Heç şübhəsiz ki, COP 29 bütün dünya üçün vacib idi və dünya ictimaiyyətinin bunu yüksək qiymətləndirməsi də əbəs yerə deyil. Çünki müzakirə olunan məsələlər bütün dünyanın maraqlarını təmin edir. Məsələ burasındadır ki, bu məsələdə də öz qısqanclığını gizlətməyənlər də oldu. Əslində, Azərbaycanın bu qədər vacib və bu qədər qlobal məsələyə xüsusi önəm verməsi xüsusi alqışla qarşılanmalı idi. Amma görünən odur ki, ölkəmizin ev sahibliyi etdiyi bu beynəlxalq tədbir də kimlərinsə xoşuna gələsi olmadı. Səbəb bəllidir və görünən odur ki, Azərbaycanın uğurlarını, nailiyyətlərini, qlobal miqyasda söz sahibi olmasını, beynəlxalq tədbirə ev sahibliyi etməsini həzm etməkdə çətinlik çəkənlər var imiş. Heç şübhəsiz ki, bu böyüklükdə tədbirə Azərbaycan yox, hansısa dövlət, hansısa ölkə ev sahibliyi etmiş olsaydı, indi bütün dünyada səs-küy əlindən durmaq olmazdı və bir ağızdan hamı tədbirin əhəmiyyətindən danışardı. Amma Azərbaycanın dünya miqyasında əhəmiyyətli tədbiri layiqincə təşkil etməsi nəyə görəsə kimlərinsə heç ürəyincə olmadı. Bunun adı sadəcə olaraq, qısqanclıqdır və məhz ölkəmizə qarşı olan barışmaz mövqedən başqa bir şey deyil.

### Bu qədər ədalətsizlik, bu qədər haqsızlıq olmaz və hər halda bunun bir sonu olacağının əksini fərz etmək də ağıla belə gəlmir

Bu vaxta qədər işğalçılığı dövlət siyasəti olaraq qəbul edən Ermənistanda belə bir beynəlxalq tədbir keçirilmiş olsaydı, səssorağı dünyanın hər tərəfini bürüyərdi. Bəlkə də ən böyük dövlətlər, dünyanın ən tanınmış beynəlxaq təşkilatları həmin tədbiri nəinki alqışlayar, hətta maddi yardımlarını da əsirgəməzdi. Amma Azərbaycana yanaşmada biz bunu müşahidə etmədik. Bütövlükdə dünyanı maraqlandıran məsələlərin müzakirəsində ölkəmizə zərrə qədər də dəstək görə bilmədik. Heç bir beynəlxalq təşkilatdan, yaxud maliyyə qurumundan gözlənilən dəstəyin şahidi olmadıq. Halbuki böyük bir dəstəyin göstərilməsinin vacibliyi məntiqi baxımdan gözlənilən idi. Əslində, belə olmalı deyildi. Dünyanın ayrı-ayrı ölkələri, beynəlxalq təşkilatları xüsusi diqqət nümayiş etdirməli idilər və müvafiq şəkildə gözlənilən maliyyə vəsaitinin ayrılmasına da qərar verəməli idilər. Çünki müzakirə olunan məsələ bütövlükdə dünyamız üçün olduqca önəmli, olduqca vacib sayılır.Zənn edək ki, İrəvan bu böyüklükdə tədbirə ev sahibliyi etsəydi, indi bütün dünya bar-bar bağırırdı ki, Ermənistan dünyanın "dərdini" çəkir. İndi elə bir fikir formalaşdırılardı ki, guya haylar özlərini yox, bütün dünya ictimaiyyətini düşünürlər və bütün dünyanı xilas etmək üçün əldən-ayaqdan gedirlər. Məsələ burasındadır ki, ermənilərin belə bir niyyətdə olmaları heç təsəvvür də etmək olmaz. Çünki haylar heç zaman humanizm nöqteyi-nəzərdən yanaşma ortaya qoymayıblar. Tarix boyu Ermənistan ancaq öz maraqlarından çıxış edib və bunun əksini ağıla belə gətirmək mümkün də deyil. Əgər ermənilər humanizm haqqında zərrə qədər düşünsəydilər, dünyanın problemlərini az da olsa nəzərə alsaydılar, bu qədər fəlakətlər törətməzdilər. Onlar bizdən fərqli olaraq, problemlərin həllinə maraq göstərməyiblər, ancaq problemlər yaradıblar və bəşəriyyət üçün xoşagəlməz vəziyyət yaratmaqdan başqa əllərindən bir şey gəlməyib. Bununla yanaşı, hələ də dəstək almaqdadırlar və elə bil ki, yaratdıqları problemlərə görə onlara xüsusi təşəkkür də düşürmüş. Bu qədər ədalətsizlik, bu qədər ikiüzlülük və haqsızlıq olmaz və hər halda bunun bir sonu olacağının əksini fərz etmək də ağıla belə gəlmir.

### Özünün ümumbəşəri prinsiplərə sadiq qaldığını yenə də Azərbaycan ortaya qoydu və bu, ancaq təqdirəlayiq sayılmalıdır

Azərbaycan yenə də özünün ümumbəşəri prinsiplərə sadiq qaldığını ortaya qoydu. Bir zamanlar, daha dəqiq desək, pandemiya yenicə başlayanda öz yardımları ilə bəşəriyyətin xilası üçün çıxış edən ölkəmiz yenə də dünyamızın qorunması üçün əlindən gələni əsirgəmədiyini sübut etdi. Kimlərsə bunu görməməzliyə vura bilərlər, amma özlərini görməməzliyə vursalar da zərrə qədər fərq etmir. Onsuz da tədbir uğurla davam etməkdədir və bunu danmaq qətiyyən mümlün deyil. Qətiyyən danmaq olmaz ki, Azərbaycan bütövlükdə bəşəriyyəti maraqlandıran məsələləri qabartmaq, həllinə nail olmaq üçün əlindən gələni əsirgəmir. Bütün bunlar ancaq alqışa layiqdir, amma biz bu alqış əvəzinə tamam başqa bir qısqanclıq görürük.Hazırda rəsmi Bakı öz maraqlarından deyil, regional maraqlardan, eləcə də qlobal maraqlardan çıxış edir. Bölgədə sülhün, əmin-amanlığın təmin edilməsinə çalışan Azərbaycan, dünyamızın da problemsiz olması üçün səylər göstərir. Ekoloji məsələlərə həssaslığı yanaşan Azərbaycan qlobal miqyasda ciddi işlər görmüş olur. Bunu görməməzliyə vurmaq, sadəcə olaraq qısqanclıq əlmətidir. Azərbaycan həm bölgədə sülhə, əminamanlığa nail olmağa salışır, həm də bəşəriyyət üçün ən önəmli olan məsələlərin həllinə töhvə vermək üçün əlindən gələni edir. Görəsən, nə zamansa Ermənistanın belə bir niyyətdə olduğunun şahidi olan olubmu? Yaxud, kimsə deyə bilərmi ki, rəsmi İrəvan nə zamansa bütün dünyanı maraqlandıran məsələlər üçün maraqlı ola bilər? Qətiyyən bunu demək olmaz, çünki göz önündə olanlar nə bunu deməyə, nə də buna inanmağa imkan verməz.




### Elə məsələlər var ki, həmin məsələlərə dünya ictimaiyyəti vahid bir səslə cavab verməlidir, qısqanclıqla yox

Elə məsələlər var ki, həmin məsələlər təkcə bir ölkəni deyil, bütövlükdə dünyanı maraqlandıran, dünyanın maraq dairəsində olan məsələlərdi. Həmin məsələlərə dünya ictimaiyyəti vahid bir səslə cavab verməlidir. Məsələn, ekologiya, ətraf mühitin mühafizəsi təkcə bir ölkəni maraqlandıran məsələ deyil. Bütövlükdə dünya ictimaiyyəti bu məsələdə iradə nümayiş etdirməli, dünya dövlətləri, beynəlxalq təşkilatlar bununla bağlı davamlı şəkildə mübarizə aparmalıdırlar. Əgər Azərbaycanın timsalında hansısa bir ölkə bununla bağlı tədbir keçirirsə, buna görə təşəkkür etmək gərəkir, qısqanclıqla yanaşmaq yox. Yaşıl enerji ilə bağlı çağırışlar, dünyamızın ekoloji baxımdan təmizlənməsi üçün olan tələblər hamı tərəfindən müsbət qarşılanmalıdır. Hansısa ölkəyə qarşı nə qədər aqressiya olsa belə, sözügedən məsələ ilə bağlı ortaya qoyulan təşəbbüs ancaq təqdirəlayiq sayılmalıdır. Təəssüf ki, belə sayılmır və hələ də ədalətsiz yanaşma, ikili standartlar, haqsızlıq müşahidə edilir.Hələ də dünya ictimaiyyəti, ələlxüsus da demokratiyadan, insan azadlıqlarından, haqlardan, hüquqlardan dəm vuran bəzi ölkələr və beynəlxalq təşkilatlar Azərbaycan vətəndaşlarının mina terrorunun qurbanı olduğunu ancaq müşahidə edir. Bütün dünya hələ də Ermənistana bununla bağlı hansısa irad bildirmir və hələ də mina terrorunun qurbanlarının sayı artır, dağıntıların, ətrafa dəyən zərərin miqyası böyüyür. Hələ də Azərbaycan ərazilərində təhlükəli şərait mövcuddur və hələ də ermənilərdən həmin o basdırdıqları minaların xəritələrini istəyən yoxdur. Məgər partlayıcıların təsirinə məruz qalınması bu qədər diqqət tələb etməyən məsələ sayılırmı? Bəlkə dünyanın bir çox dövlətləri, beynəxalq təşkilatları ərazilərimizin fauna və florasına ermənilərin vurduqları zərərdən xəbərsizdirlər? Yoxsa özlərini bilməməzliyə vurmaqla işlərini bitmiş hesab edirlər? Bu qədər yaşıllıqların məhv edilməsinə göz yummağın adını nə qoymaq olar. Onillər boyunca ölkəmizin meşələrinə, yaşıllıqlarına mümkün qədər çox zərər verənləri görmək əvəzinə, buna göz yummağa nə ad vermək mümkündür? Bütün bunların fonunda Azərbaycanın yaşıllıq sahələrini artırması, ekoloji tarazlığı bərpa etməsi, yaşıl enerji naminə, dünyamızın xilası naminə bu böyüklükdə tədbirə ev sahibliyi etməsinə layiqincə qiymət verməmək nə deməkdir və buna nə ad verək? Axı bunun adı yaxşı halda, ancaq qısqanclıqdır...

***İnam Hacıyev***

# 32 ilin qürurverici fəaliyyət yolu!

## *YAP Cənubi Qafqazın lider partiyası olduğunu əməli fəaliyyəti ilə nümayiş etdirib*



TƏHLİL

Yorulmaq bilmədən çalışan, ruhdan düşmədən göstərilən fədakarlıq, yüksək zəhmət istənilən halda hədəflərə çatmağa, istəkləri reallaşdırmağa imkan verir. Azərbaycan xalqı da çətinliklərlə, üzücü problemlərlə üzləşsə də, heç zaman ümidsizliyə qapılmayıb, ruhdan düşməyib, məqsəd və hədəfindən yayınmayıb. Ötən əsrin 90-cı illərində Azərbaycan dövləti dəhşətli problemlər məngənəsində sıxılsa da, xalqın sabaha olan inamı, xüsusilə də Ulu Öndərimiz Heydər Əliyevin ətrafında sıx birləşməsi ölkəmizin üzləşdiyi ağır, üzücü məsələlərin aradan qaldırılmasına şərait yaratdı. İstər yerli, istər xarici siyasi ekspertlər, dövlət və hökumət adamları da təsdiq edirlər ki, əgər 1993-cü ildə Ümummilli Lider Heydər Əliyev xalqın çağırışına əsasən Azərbaycanda hakimiyyətə gəlməsə idi, bu gün dünya xəritəsində Azərbaycan adlı dövlət olmayacaqdı. Ancaq Dahi Öndərimiz Heydər Əliyev dövlətini sevən, xalqına bağlı olan böyük şəxsiyyət, dahi lider olduğu üçün xalqın çağırışına seyriçi qalmadı, xalqının yanında oldu, ikinci dəfə hakimiyyətə gəlməklə dövləti dağılmaqdan, xalqını bəlalardan xilas etdi. Ulu Öndərimiz Heydər Əliyev hər bir problemi həll edərkən, çətin məsələləri aradan qaldırarkən Azərbaycan xalqına arxalanmışdır. Dahi Öndərimiz Heydər Əliyev böyük uzaqgörənliklə demişdir: “Mən həmişə xalqa arxalanmışam, xalqa bel bağlamışam. Mənim həyatım həmişə xalqla bir yerdə olub, bu gün də bir yerdədir, sabah da bir yerdə olacaqdır”.

### Xalqa, dövlətə əvəzsiz xidmətləri ilə Ulu Öndərimiz Heydər Əliyev müstəqil Azərbaycan tarixində əbədi yaşamaq haqqı qazanmışdır

O dövrdə Azərbaycan ziyalıları da xüsusi fəallıqları ilə seçilirdilər. Məhz onların ardıcıl və davamlı fəaliyyətini, Ulu Öndərimiz Heydər Əliyevə ünvanladıqları məktublar, müraciətlər xalqın ümidsizliyə düçar olmasının ardan qaldırılmasında xüsusi rol oynamışdır. Xalqımızın milli maraqlar ətrafında birləşmiş sağlam qüvvələri, o cümlədən ziyalılar Ulu Öndər Heydər Əliyevə müraciət etdi. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalının “Səs” qəzeti vasitəsi Ulu Öndər Heydər Əliyevə ünvanladığı müraciətdə müraciət də deyilirdi: “Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir”.

Azərbaycan xalqının xilaskarı, dövlətimizin qurucusu Ümummilli Lider Heydər Əliyev “Səs” qəzeti vasitəsi ilə ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi: “Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər”.

O zaman hakimiyyəti zəbt etmiş AXC-Müsavat iqtidarı Yeni Azərbaycan Partiyasının yaradılmasına ciddi əngəllər yaratmağa başladı. Ona görə də, 1992-ci il noyabrın 21-də 550 nəfər Naxçıvanda toplandı və keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası yaradıldı və Dahi Öndərimiz Heydər Əliyev partiyanın Sədri seçildi. YAP-ın yaranması, Ümummilli Lider Heydər Əliyevin bu partiyaya Sədr seçilməsi respublikanın ozamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu vəziyyətin daha da kəskinləşməsindən irəli gələn tarixi zərurət oldu. Həmin tarixi hadisələri dəyərləndirən Ulu Öndər Heydər Əliyev deyirdi: “Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir... Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan... ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır”.

### Yeni və qüdrətli Azərbaycan uğrunda

Yeni Azərbaycan Partiyası təsis edilməsi ilə qısa müddətdə ölkənin hər yerində özək təşkilatları yaradıldı. Partiyanın təşkilatlanması və daha da genişlənməsi fonunda Dahi Öndərimiz Heydər Əliyev Bakıya gəlib xalqın yanında olduğunu nümayiş etdirdi. Parlamentin sədri və prezident səlahiyyətlərinin icrasına başladıqdan qısa müddət sonra ölkə də yaranan ictimai siyasi sabitlik, iqtisadi dirçəliş xalqın əyilmiş qəddini düzəltdi. Xalq öz liderinə buna görə öz təşəkkürünü bildirmək üçün Ona bir ad verdi- Ümummilli Lider. 1994-cü il sentyabrın 20-də ”Əsrin müqaviləsi”nin imzalanması Azərbaycanın bu gününə və gələcəyinə inamı artırdı. Xəzərin Azərbaycan sektorunda 15 ölkənin, 33 iri neft şirkətinin iştirakı ilə 22 neft-qaz müqaviləsinin imzalanmasına səbəb oldu. Bakı-Tbilisi-Ceyhan kəməri Azərbaycanın yeni neft strategiyasının təməl daşı, iqtisadiyyatımızın ana xəttidir. Mütəxəssislər haqlı olaraq bu layihəni Azərbaycanın taleyində dövlət müstəqilliyi qədər əhəmiyyətli tarixi hadisə hesab edirlər. Azərbaycanın sosial-iqtisadi tərəqqisinə, onun beynəlxalq aləmə iqtisadi inteqrasiyasına zəmin yaradan bu misilsiz layihəyə görə nəinki Azərbaycan, hətta bir çox xalqlar Heydər Əliyevə minnətdar olacaqlar. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi haqqında müqaviləni bağlamaqla Ulu Öndər Heydər Əliyev təkcə Azərbaycanın yox, Gürcüstan və Türkiyənin də iqtisadi inkişafına zəmin yaratdı. Üstəlik, bu ölkələrin təhlükəsizliyini təmin etdi.

Azərbaycanda siyasi sabitliyin təmin olunması və iqtisadi inkişafa nail olunmasından narahat olan yerli və xarici qüvvələr ölkədə qarşıdurma yaratmağa, sabitliyi pozmağa cəhdlər göstərdilər. Hətta dövlət çevrilişləri təşkil etməklə ölkəni yenidən xaos və anarxiya girdabına atmağa cəhdlər göstərdilər. Lakin Ulu Öndər Heydər Əliyevin qəti iradəsi, möhkəm əzmi ilə 1994-cü il oktyabr, 1995-ci il mart dövlət çevrilişlərinin qarşısı məharətlə alındı. Dahi Öndər Heydər Əliyev 1994-cü ilin may ayında atəşkəs haqqında müqavilə imzalamaqla Azərbaycanı siyasi, iqtisadi və hərbi böhrandan qurtardı. Dünyanın Azərbaycana qarşı siyasətini dəyişdi. Onun diqqətini Vətənimizə yönəltdi. Heç şübhəsiz ki, Azərbaycanın əldə etdiyi siyasi, iqtisadi, hərbi uğurlarda Yeni Azərbaycan Partiyasınında müstəsna rolu və yer var. Kəmiyyət və keyfiyyət baxımından üstün olması YAP-ın nəinki Azərbaycanda, eyni zamanda, Cənubi Qafqazda böyük siyasi qüvvəyə çevirib. Xalqın iradəsini ifadə edən, iştirak etdiyi bütün seçkilərdə parlaq qələbələr qazanan, ölkənin avanqard partiyasının üzvü olmaq hər bir gənc üçün böyük şərəf və məsuliyyətdir.

### YAP qələbələr partiyasıdır

YAP-ın müasir dövrün tələblərinə uyğun olaraq formalaşması və inkişafı 1999-cu ildə keçirilmiş qurultayından sonra bir qədərdə genişləndi və təkmilləşdi. YAP-ın rəhbərliyinə Azərbaycan gənclərinin lideri olaraq Cənab İlham Əliyevin seçilməsi partiyanın həyatında dinamik dönüş yaratdı. 1999-cu ildən sonra Yeni Azərbaycan Partiyası dünyanın bir sıra ölkələrinin siyasi təşkilatları ilə ikitərəfli əlaqələr qurdu, beynəlxalq təşkilatlarda təmsilçilik hüququ qazandı. Buna isə yeni dövrün yeni lideri olan Cənab İlham Əliyevin xüsusi xidmətləri sayəsində nail olundu. 2005-ci ilin mart ayında keçirilən YAP-ın III Qurultayında Azərbaycan Prezidenti, YAP Sədrinin Birinci müavini Cənab İlham Əliyevin partiyanın Sədri seçilməsi ilə partiyanın həyatında yeni mərhələ başladı. Faktlara istinadən demək olar ki, Ulu Öndər Heydər Əliyev ideyalarına söykənən YAP-ın ilbəil gücləndiyinin bir daha şahidi olarıq. Belə ki, əgər YAP-ın 2001-ci ildə keçirilmiş II Qurultayı zamanı partiya üzvlərinin sayı 230 min nəfər idisə, III Qurultaya qədər bu göstərici 360 min nəfərə yüksəlmişdi. Yeni Azərbaycan Partiyasının Partiyanın VII qurultayı daha möhtəşəm, tarixi bir mərhələdə keçirildi. Həmin tarixi anlar 30 il işğal altında olmuş torpaqlarımızın işğaldan azad olunması idi. Azərbaycan Prezidenti, Fateh Sərkərdə, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev VII qurultayda Vətən Müharibəsində qazanılan Qələbədən geniş və iftixar hissi ilə danışdı və qeyd etdi ki, bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir: “Partiyamızın VI qurultayından üç il ötür. Bu illər ölkəmiz üçün, bölgəmiz üçün həlledici illər olmuşdur. Üç il ərzində ölkə həyatında bir çox önəmli hadisələr baş vermişdir. Təbii ki, onların arasında ən önəmlisi ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq Qələbənin qazanılmasıdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu və beləliklə, tarixi ədalət bərpa olundu. Bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir”.

YAP-ın VII qurultayında vacib qərarlar qəbul edildi. Partiyanın yeni Nizamnaməsinin qəbul olunması, İdarə Heyətinin 40 nəfərdən ibarət tərkibdə seçilməsi partiyanın idarə olunmasının və partiyada fəaliyyətin tənzimlənməsinin yeni, çevik mexanizminin yaradılması baxımından aktuallıq kəsb edir. Bütövlükdə, YAP-ın VII qurultayı və qəbul olunan qərarlar partiyanın fəaliyyətini yeni mərhələyə yüksəldir. Ən əsası, qəbul olunan qərarlarla YAP həm də yeni siyasi nümunə ortaya qoydu. Ən əsası, VII qurultay göstərdi ki, ölkənin aparıcı siyasi qüvvəsi kimi YAP bundan sonra da qarşısında dayanan vəzifələri layiqincə yerinə yetirəcək.

### Qələbələr və uğurlar davamlı olacaq

Ulu Öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı Fateh Sərkərdə, Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi sayəsində 30 il erməni işğalı altında olan torpaqlarımız azadlığına qovuşdu. 2016-cı ilin aprelində Müzəffər ordumuz öz gücünü erməniləri bir sıra məntəqələrdə məhv edib, sıradan çıxartmaqla dünyaya nümayiş etdirdi. Aprel döyüşlərində qəhrəman ordumuz Ermənistanın təxribatına cavab olaraq keçirdiyi əks-hücum əməliyyatı nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərinin bir qismini, ümumilikdə 2 min hektardan çox torpağı işğalçılardan təmizləyərək böyük bir əraziyə nəzarəti ələ aldı. Bu döyüşlərin ən mühüm yekunu Lələtəpə yüksəkliyinin azad olunması və bununla da Cocuq Mərcanlının təhlükəsizliyinin təmin edilməsi oldu. 2018-ci ilin may ayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edildi, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirildi, Yerevan–Gorus–Laçın yolu nəzarətə götürüldü .2020-ci ilin sentyabrın 27-dən başlayan 44 günlük savaşda erməni terroru tamamilə məhv edildi. Döyüş zamanı 300-ə qədər kəndi, 5 şəhəri, 4 qəsəbəni, xeyli sayda strateji yüksəklikləri işğaldan azad etməsi noyabrın 10-da Azərbaycanın hərbi-siyasi Qələbəsinin və Ermənistanın kapitulyasiyasının təsdiqi olan Bəyanatın imzalanması ilə nəticələndi. Yenilməz Sərkərdə, Prezident İlham Əliyevin Sərəncamı əsasında Qarabağın ürəyi Şuşanın işğaldan azad edildiyi gün- 8 noyabr Zəfər Günü kimi təsis olundu. Azərbaycan Prezidenti İlham Əliyev Şuşanın işğaldan azad edilməsi ilə bağlı xalqa müraciətində demişdir: “Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!. Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyifsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!”.

2023-cü il sentyabrın 19-da başlayan və 23 saat 44 dəqiqə çəkən antiterror tədbirləri ilə Qarabağdakı separatizm tamamilə sıradan çıxarıldı və terrorçular həbs edilərək istintaqa təhvil verildi. Artıq Qarabağımız rahat nəfəs alır, aparılan genişmiqyaslı quruculuq, abadlıq, təmir işlərindən sonra insanlar öz doğma yurd –yuvalarına qayıdırlar. Bu qayıdış isə əbədidir.

**İLHAM ƏLİYEV**

# Dünya mediası COP29-dan nə yazır?


EL UNIVERSAL
SUSCRÍBETE desde $29

## Azerbaiyán defiende el petróleo y el gas en COP29

El mandatario Ilham Aliev dice en la cumbre que esos recursos son “regalos de Dios”

El presidente de Azerbaiyán, Ilham Aliyev, durante la


CHINADAILY

World

Home / World / Asia-Pacific

## Heydar Aliyev Foundation's 'Azerbaijan. Inspired by Nature' publication presented on the sidelines of COP29

Updated: 2024-11-15 17:40



Vice-President of the Heydar Aliyev Foundation Leyla Aliyeva attended the presentation.

Most Viewed in 24 Hours
Li calls for solidarity of Mekong nations
Trump claims victory, vows to heal US
Friendship from sea to sky: Guangzhou and Dubai
US Fed slashes interest rates by 25 basis points amid weakening labor market
Indonesian leader's visit set to advance ties
World in Focus
World in focus: Danger crossing
Across Asia
Helping to save lives


NOI

## Президент Молдовы и другие участники COP-29 в Баку поддержали идеи Азербайджана по борьбе с изменениями климата

15 ноя. 21:45 В Мире

В Баку 11 ноября прошло торжественное открытие 29-й сессии Конференции сторон Рамочной конвенции ООН об изменении климата COP-29.

В течение последующих двух дней состоялся саммит глав государств и правительств стран-участниц Конвенции, на котором выступила и президент Молдовы Майя Санду.

Ölkəmizin COP29 konfransını layiqincə təşkil etməsi dünya mediasının diqqət mərkəzindədir. Bir sıra beynəlxalq mətbu orqanlarında yayımlanan məqalələr, Bakıdan hazırlanan reportajlarda Azərbaycanın paytaxtında keçirilən tədbirin qlobal iqlim dəyişikliyi ilə mübarizəyə töhfə verəcəyi qeyd olunur.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində baş tutan tədbirlər Mərakeşin media orqanlarının da diqqət mərkəzindədir. Bu ölkənin rəsmi MAP xəbər agentliyinin ölkəmizə ezam etdiyi media nümayəndələri tədbir barədə reportajlar və müsahibələr hazırlayıblar.

Materiallarda COP29 tədbirlərində iştirak etmək üçün Bakıya gəlmiş Mərakeşin Baş naziri Əziz Axnuşun rəhbərlik etdiyi nümayəndə heyətinin keçirdiyi görüşlər və çıxışlar, eləcə də panel iclaslarında müzakirə edilən məsələlər barədə geniş məlumat verilib. Mərakeşin “Medi1 tv” kanalı yayımladığı reportajda Azərbaycan Prezidenti İlham Əliyevin noyabrın 12-də Bakıda keçirilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimində çıxışından sitat gətirib və dünyada ekoloji problemlərin müzakirəsi baxımdan tədbirin əhəmiyyətini vurğulayıb.

Jurnalist Həsən əl-Yusifi əl-Məğari “əl-Elami” nəşrindəki COP29 haqqındakı yazısında bildirib ki, medianın ekoloji hədəflərin həyata keçirilməsi işinə daha yaxından cəlb etmək lazımdır. Vurğulanıb ki, informasiyaların daha geniş izləyici kütləsinə çatmasında onun imkanlarından istifadə etmək olar. “Ənfas press” nəşri isə Mərakeşin “Tansift” inkişaf mərkəzinin rəhbəri dr.Əhməd əş-Şəhbuninin iqlim maliyyələşməsi mövzusuna həsr olunmuş seminarda çıxışı barədə yazıb. Nəşrin məlumatına görə, əş-Şəhbuni bildirib ki, iqlim maliyyələşməsi iqlim dəyişikliyinə qarşı mübarizədə mühümdür. Həmçinin qeyd edib ki, özəl və dövlət investisiyaları istixana qazlarının azaldılmasına töhfə verəcək layihələrə yönəldilməlidir.

“Məğrib nyuz 7” və “Məcəllə 24” nəşrləri də COP29 tədbiri haqqında dərc etdikləri silsilə materiallarda Bakıda müzakirə edilən mövzuların əhəmiyyətini qeyd edib, Mərakeşin iqlim davamlılığı sahəsində nailiyyətlərinin COP29 çərçivəsində diqqətə çatdırıldığını bildirib.

COP29 tədbirləri haqqında Türkiyənin ”TRT Haber” telekanalı da reportaj hazırlayıb. Telekanal iqlim dəyişikliyi ilə mübarizə üzrə konkret addımları müzakirə etmək üçün dünyanın hər yerindən dövlət və hökumət başçılarının, alimlərin və ekoloji fəalların Bakıda toplaşdığını qeyd edib. Reportajda bildirilib ki, COP29-un gündəliyinə atmosfer emissiyalarının qlobal şəkildə azaldılması, iqlim dəyişikliyinə uyğunlaşma addımları və iqlim ədalətinin təmin edilməsi kimi mühüm mövzular daxildir. Reportajda istixana qazı tullantılarını azaltmaq mümkün olmadığı təqdirdə 2030-cu ilə qədər qlobal istiləşmənin sürətinin 1,5 dərəcə keçə biləcəyi bildirilib”TRT Haber” Bakını iqlim böhranı ilə mübarizənin ümumi məqsədi ətrafında


MAP EXPRESS


وكالة الأنباء الأردنية Jordan News Agency

انطلاق قمة المناخ "كوب 29" في أذربيجان

dünyanı birləşdirmək üçün ideal platforma adlandırıb.

Həmçinin ”Anadolu” Xəbər Agentliyi, ”TRT Avaz”, ”Star” qəzeti və digər mətbu orqanlarında dərc edilən məqalələrdə Azərbaycanın COP29-un təşkili istiqamətində səyləri, Türkiyənin ətraf mühitin mühafizəsi sahəsində prioritetləri barədə də məlumat verilib.

Dünyaca məşhur ”Euronews” kanalı isə əməkdaşlarının hazırladığı süjeti ”Bakıda COP29: İnkişaf etməkdə olan ölkələr üçün maliyyələşdirmə və özəl sektor” başlığı ilə yayımlayıb. Sujetdə bildirilib ki, dünyanın hər yerindən gələn nümayəndələr qlobal temperaturun yüksəlməsinin qarşısını almaq yollarını tapmaq və Paris Sazişi çərçivəsində verilən vədləri yerinə yetirmək ümidi ilə Azərbaycan paytaxtında toplaşıblar. Süjetdə qeyd edilib ki, ölkələr həmçinin atmosferə zərərli emissiyaları məhdudlaşdırmaq üçün daha effektiv milli planların işlənib hazırlanması üçün zəmin yaratmağa təşviq edilir. O da əlavə edilib ki, COP29-un təşkilatçıları hesab edirlər ki, dayanıqlı məqsədlərə nail olmaq üçün təkcə iqlimin maliyyələşdirilməsinə diqqət yetirmək deyil, həm də özəl sektoru buna fəal şəkildə cəlb etmək lazımdır.

İtaliyanın kütləvi informasiya vasitələri də Bakının evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına dair məqalələr dərc edib. ANSA agentliyinin və ”il Manifesto”, ”Meteo Giornale”, ”Editoriale Domani”, ”Avvenire”, ”Upday” kimi saytların yaydığı materiallarda COP29-un əhəmiyyətindən bəhs olunub. Qeyd edilib ki, COP29 iqlim dəyişikliyi ilə mübarizəyə yönəlmiş siyasətlərin müzakirəsi və həyata keçirilməsi üçün əvəzsiz platformadır.

BƏƏ-nin də nüfuzlu xəbər portallarında yayımlanan xəbərlərdə bildirilib ki, qlobal iqlim dəyişmələrinə qarşı daha səmərəli mübarizənin aparılması məqsədilə COP29-da iqlim maliyyələşməsi məsələsi xüsusilə diqqət mərkəzində saxlanılacaq. Eləcə də iqlim dəyişmələri və ətraf mühit məsələlərinin dövlət siyasətində mühüm yer tutan Azərbaycanın COP29-da əsas hədəfləri, həmçinin bu mötəbər tədbirdə dünya ictimaiyyətinin qarşısında duran yeni iqlim çağırışları və təhdidləri barədə ətraflı məlumat verilib.

Almaniyanın bir sıra aparıcı media orqanları Bakının evsahibliyi etdiyi COP29-u geniş işıqlandırıb. ”Bild”, ”ZDF Heute”, ”Deutsche Welle”, ”Tagesschau”, ”Freitag”, ”Sueddeutsche” və digər media qurumları Bakıda keçiriləcək dünya iqlim konfransına geniş yer ayırıb.

# Beynəlxalq hüquq və ac-yalavac uşaqlar





**_Dünyada yaşanan bütün texnoloji və sosial inkişaflara baxmayaraq, biz hələ də uşaqların fiziki, əqli və mənəvi cəhətdən istismar edildiyinin şahidi oluruq. Xüsusən də, münaqişələrin intensiv olduğu bölgələrdə ən çox zərər çəkənlər uşaqlardır. Həyatlarının lap erkən illərində müharibənin nə demək olduğunu görən və ən çox zorakılığa, istismara, təcavüzə məruz qalan uşaqlar gələcəkdə yaşadıqları travmaların təsirini bütün həyatları boyunca öz çiyinlərində daşıyırlar._**








1989-cu ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul edilmiş Uşaq Hüquqları Konvensiyası uşaqların hüquqları ilə yanaşı minimum həyat şərtlərini də müəyyən edir. Bu konvensiya, ayrı-seçkiliyə yol verilməməsi, uşağın hüquqlarını ümumiləşdirən dörd əsas prinsip əsasında hazırlanıb. Bu kontekstdə münaqişə bölgələrində yaşayan uşaqların vəziyyəti bu razılaşma ilə tamamilə ziddiyyət təşkil edir. Konvensiyada aydın şəkildə göstərilir ki, hər bir uşaq özünəməxsus ləyaqətə, bərabər və ayrılmaz hüquqlara malikdir və bu vəziyyət qorunur.

Bu qərarın qəbul edilməsindən 40 ilə yaxın vaxt keçməsinə baxmayaraq, 1982-ci ildən bəri çox şeyin dəyişmədiyini görmək kədərlidir. Dünyanın bir çox yerlərində hələ də müharibələr davam edir və bu müharibələrdən ən çox uşaqlar əziyyət çəkir. Hər gün televiziyalarda, qəzetlərdə gördüyümüz, oxuduğumuz xəbərlərdə bu proseslərin qurbanı olan minlərlə uşaq görürük.

BMT-nin Uşaq Fondunun (UNICEF) açıqladığı məlumatlara görə, 2019-cu ildə münaqişə və zorakılıq nəticəsində məcburi köçkün olan uşaqların sayı 19 milyon nəfərə çatıb ki, bu da indiyədək ən yüksək səviyyədir. UNICEF-in "Öz ölkəsində itkin düşənlər" hesabatına əsasən, məcburi köçkün uşaqların ən primitiv haqlarına belə çıxışı yoxdur. Əksinə, onların böyük qisminin zorakılıq, istismar və insan alverinin qurbanı olmaq riski var. COVID-19 epidemiyası, habelə müharibələr səbəbi ilə evlərindən didərgin düşmüş uşaqların vəziyyətinin daha da pisləşdiyi bildirilən hesabatda uşaqların qeyri-sağlam şəraitdə yaşadığı bildirilir.

Bundan əlavə, Save the Children Fondunun "Uşaqlara qarşı müharibəni dayandırın 2020" hesabatına əsasən, 2018-ci ildə 415 milyon uşaq münaqişə zonalarında yaşayır ki, bunun da 149 milyonu gərgin münaqişə zonalarındadır. Bu rəqəmə nəzər saldıqda, demək olar ki, hər altı uşaqdan birinin münaqişə zonasında yaşadığını görə bilərik. Bu vəziyyət həm də uşaqların müharibələrdə əsgər kimi istifadə edilməsinə şərait yaradır və uşaqların müharibənin hər sahəsində istismar edilməsi deməkdir.

Beynəlxalq Əmək Təşkilatının (BƏT) məlumatlarına görə, hazırda dünyada 5-17 yaş arasında ən azı 218 milyon uşaq işçi var və onlardan ən azı 73 milyonu təhlükəli işlərdə çalışır. Son 10 ildə dünyada 2 milyondan çox uşaq münaqişələr nəticəsində həlak olub, 1 milyondan çoxu yetim qalıb, 6 milyondan çox uşaq ağır yaralanıb və qalan ömrünü əlilliklə davam etdirməli olub.

Pedofillərin də ilk hədəfi çox vaxt yetim və kimsəsiz uşaqlar olur. Ümumdünya Səhiyyə Təşkilatının 2017-ci ildə apardığı araşdırmaya görə, dünyada uşaqların 23%-i fiziki, 18%-i qızlar, 8%-i oğlanlar, cəmi 26%-i cinsi, 36%-i isə emosional zorakılığa məruz qalır. 2019-cu ildə hazırlanan və 40 ölkəni əhatə edən araşdırmada uşaqlar üçün ən təhlükəsiz ölkələr 100 balla indeksləşdirilib. İlk 10-luqda ümumilikdə iqtisadi gəlirləri yüksək olan ölkələr bunlardır: İngiltərə (82,7), İsveç (81,5), Kanada (75,3), Avstraliya (74,9), ABŞ (73,7), Almaniya (73,1), Cənubi Koreya (71,6), İtaliya (69,7), Fransa (65,2) və Yaponiya (63,8).

Ümumdünya Səhiyyə Təşkilatının 2020-ci ildə paylaşdığı hesabata görə, həmin il 2-17 yaş arası təxminən 1 milyard uşaq, fiziki, cinsi və ya emosional zorakılığa məruz qalıb. "World Vision" təşkilatının məlumatına görə, dünyada hər il 1 milyard 700 milyon uşaq zorakılığa məruz qalır. Dünyada hər 10 uşaqdan 6-sı valideynləri tərəfindən fiziki cəzalandırılır. Uşaqların 10 faizi fiziki cəzadan qanunla qorunmur. Aşkar edilmiş insan alveri hallarında 28 faiz qurban uşaqlar olur.

Dünyada 50 milyona yaxın uşaq məcburi köçkün vəziyyətindədir. Hər il 15 yaşa qədər 41 min uşaq məişət qətli nəticəsində dünyasını dəyişir. UNICEF və Dünya Bankının ötən ilki hesabatına görə, dünyada təxminən 333 milyon uşaq və ya hər 6 uşaqdan 1-i həddindən artıq yoxsulluq şəraitində yaşayır.

Təəssüf ki, texnologiyanın ən inkişaf etdiyi dövrümüzdə hələ də müharibələrin getdiyi, uşaqların hər mənada istismar edildiyi bir dünyanın inkişaf etdiyini söyləmək mümkün deyil. Ancaq 20 noyabr kimi beynəlxalq günlərdə, uşaqların qorunması, müdafiəsi məqsədi ilə təsis edilmiş tarixlərdə yada düşən problemlər elə yazdığımız yazılarda, müzakirə edilən dəyirmi masalarda, təşkil edilən seminar və təlimlərdə qalır. Müharibə, aclıq, səfalət olan ölkələrdə yaşanan ağrıların və davam edən problemlərin illərdir heç dəyişmədiyini görmək kədərlidir.

**_Lalə Mehralı_**






# Tarixin daha bir cinayəti: Qarakənd faciəsi

***Terrorizm müasir dövrün ən təhlükəli təzahürlərindən biridir və müasir dünya bunun acı nəticələrini hələ də yaşayır. Terrorizm haqqında birmənalı tərif olmasa da, mütəxəssislərin əksəriyyətinin qənaətinə görə siyasi, dini, ideoloji və iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni əməllərin, zorakılığın, gücün, hədənin tətbiq olunmasıdır. Təbii ki, real həyatda terror aktlarından daha çox günahsız insanlar, dövlət adamları ziyan çəkir və siyasi, etnik, dini və s. zəmində yaranan terrorların şahidi oluruq.***

Tarixin müxtəlif dönəmlərində Azərbaycan xalqı terror aktlarının, vəhşiliklərin, soyqırımların acı nəticələrini yaşamışdır. Ermənistan tərəfindən etnik terrora məruz qalmış Azərbaycan xalqına qarşı törədilən əməllər insani əxlaqa, qanuna, beynəlxalq hüquqa ziddir. Yaşadığımız tarix göstərir ki, erməni terrorlarının ölkəmizdə sayı-hesabı yoxdur. Bu terror aktları qəddar, faşist xislətli əməllərdir ki, xalqımız bunu yaşayıb. Ermənistan tərəfindən etnik terrora məruz qalmış Azərbaycan xalqına qarşı törədilən əməllər insani əxlaqa, qanuna, beynəlxalq hüquqa ziddir. Yaşadığımız tarix göstərir ki, erməni terrorlarının ölkəmizdə sayı-hesabı yoxdurQarakənd faciəsinin baş verdiyi tarixi hadisədən bizi 33 illik bir zaman ayırsa da baş verən hadisənin faciəsi yaddaşımızda dünən kimi yer alıb. 1991-ci il noyabrın 20-də Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında Azərbaycana məxsus "Mi-8" hərbi helikopteri erməni silahlı quldurları tərəfindən vuruldu. Tarixi mənbələrə diqqət etsək görərik ki, 1991-ci il noyabrın 7-də Bakıda Qazaxıstan, Azərbaycan, Türkmənistan, Rusiya və Ermənistan həmsədrlərinin görüşü keçirildi. Görüşün səbəbi Qarabağ müharibəsi və hansı xalqın sıxışdırıldığını diqqətə çatdırmaq olmuşdur. Bu səbəbdən də, həmsədrlər razılaşırlar ki, hadisələri öz gözləri ilə görsünlər və Xankəndiyə getsinlər. 1991-ci il noyabrın 18-də Mixail Qorbaçovun şəxsi köməkçisi Kremldən Bakıya zəng vurur və Azərbaycan Respublikasının Qarabağ rəhbərliyindən xahiş edir ki, Təhlükəsizlik Şurasının növbəti iclasını Qarabağda keçirsin, çünki ərazideki torpaq iddiasında olan erməni liderlərinin və Moskva nümayəndələrinin də bu iclasda iştirakı nəzərdə tutulur. Telefon zəngindən sonra Bakıda siyahı tərtib olunur. Siyahıya Viktor Polyaniçko rəhbərlik etməli idi. Nümayəndələr, ancaq güc nazirliklərindən və Təhlükəsizlik Şurasının rəhbər orqanlarından ibarət olmalıydı. Rayon komendantı Nikolay Jinkinin müavini, polkovnik Vladimir Kuşnarikin 1991-ci il noyabrın 18-də tərtib etdiyi və Bakı ilə razılaşdırılmış siyahısına "Aşanak" kolxozunun heyvandarlıq birliyinin sədri Emil Balayan, Vladimir Kuşnarikin özü, beynəlxalq erməni diasporu (əsasən, Fransa və Kaliforniya erməni kilsələri) tərəfindən maliyyələşdirilən "Krunk" təşkilatının Qarabağdakı ideoloqlarından Oleq Yeseyan, "Yevkrapa" cəmiyyətinin maliyyə məsələlərinə baxan, onun Livan erməni diasporu ilə əlaqələndiricisi Leonard Petrosyan, zabit Tatavis Baqramyan və Azərbaycan Xalq Cəbhəsinin Ağdam, Xocavənd, Füzuli, Cəbrayıl, Xocalı, Əsgəran rayon şöbələrinin liderləri və onların Bakı nümayəndəsi daxil olsun. Məşvərət lentə alınmalı və respublika televiziyasının "Günün ekranı" xəbərlər proqramında göstərilməli idi. Saat 13:40 dəqiqədə Ağdam Hava Limanına verilən xəbərdən sonra bu adamlar vertolyota minmirlər.



## GECƏDƏN XEYLİ KEÇMİŞ SİYAHI TƏZƏLƏNİR

Rəsmi Moskva iclasda dövlət katibi Tofiq İsmayılov və baş prokuror İsmət Qayıbovun hökmən iştirakını xahiş edir. Bu xahişi isə, məhz polkovnik Georgi Septa çatdırır. 1991-ci il noyabrın 19-u siyahı tərtib olunur və ilkin siyahı Tofiq İsmayılovun rəhbərliyilə müzakirə edilir. Millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov siyahıdan çıxarılır. Onların yerinə güc nazirliklərinin, qoşun birləşmələrinin rütbəli məmurları salınır. Siyahıya Viktor Polyaniçkonun başçılıq etməsi qüvvədə qalır. Ancaq 1991-ci il noyabrın 19-da gecədən xeyli keçmiş siyahı təzələnir. Viktor Polyaniçkonun, güc nazirliklərindən seçilmiş şəxslərin adları siyahıdan çıxarılır. Millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov siyahıya daxil olunur. Yeni siyahını Ayaz Mütəllibov 1991-ci il noyabrın 19-u, saat 23:00-da təsdiqləyir. Qarabağa gedəcək adamların siyahısı DQ rəhbərliyinə, Ağdam Hava Limanına, hərbi komendanta və Moskvaya göndərilir. Qrupun Qarabağ ərazisindəki fəaliyyətinə isə, üçlük nəzarət edir - Qarabağ təhlükəsizlik rəisi, polkovnik Georgi Septa, hərbi komendantın müavini, polkovnik Vladimir Kuşnarik və Xocavənd milis rəisi və polkovnik Oleq Osenov.

Gülablı və Yenikənd istiqamətlərində hərbi maşınlarda qurulmuş və Ağdam, Xocalı hava limanlarının uçuş və enmə zolaqlarını nəzarətə götürən radarlar vasitəsilə saat 14:05-də Ağdamdan Qarakənd istiqamətinə uçan Mİ-8 N72 vertolyotun rabitə əlaqələri kəsilir. Qırılmış rabitə ilə bağlı ilkin məlumatlar Xocavənd istiqamətində ötürülür. Lakin törədilən faciə haqqında ilkin məlumat təqribən altı saatdan sonra verilir. Ağdam, Xankəndi və Xocavənd hərbi birləşmələrinin komandanlığı susurdu. Hesablamalara görə, Qarakənd üzərində üç yüz metr yüksəklikdə uçan Mİ-8 N72 vertolyotu 1991-ci il noyabrın 20-də saat 14:42 dəqiqədə vurulur. Faciə haqqında ilkin məlumat Prezident Aparatına saat 19:55-də çatır. Lakin bu faciə haqqında xəbər Xankəndidən erməni dilində yayımlanan "Vətən və vətəndaş" verilişinin xəbərlər bölümündə, saat 15:30-da yayımlanmışdı. Həmin gün Yerevan radiosu saat 16:15-də həmin xəbərin "qəza" kimi şərhini verir. Həmin məlumatı saat 16:40-da Tehran radiosu, 17:00-da Moskva radiosu açıqlayır.

## MÜASİR DÜNYANIN TOQQUŞDUĞU ƏSAS VƏ TƏHLÜKƏLİ PROBLEMLƏR

Bütün bunlar müstəqilliyini təzəcə qazanmış Azərbaycana qarşı məkrli şəkildə hazırlanmış terror aktının tərkib hissələri idi.

Hər bir terror aktında insan ölümü diqqəti çəkir. Bu terror aktları qəddar, faşist xislətli əməllərdir ki, xalqımız bunu yaşayıb. 1992-ci il yanvarın 28-də daha bir terroru yaşamış olduq. Ağdamdan Şuşaya uçan "Mİ-8" mülki helikopterinin erməni terrorçuları tərəfindən Xankəndi istiqamətindən qumbaraatanla vurulması terrorun acı nəticəsidir. Terror hadisəsi Şuşanın Xəlfəli kəndi yaxınlığında baş vermiş, hadisə nəticəsində əksəriyyəti qadın və uşaqlardan ibarət 41 sərnişin və 3 ekipaj üzvü, ümumilikdə 44 nəfər həlak olmuşdur. 44 nəfərin həlak olunması erməni faşist ideologiyasını bir daha üzə çıxarır. Göründüyü kimi, real həyatda terror aktlarından daha çox günahsız kütlə, dövlət adamları ziyan çəkir. Müasir dünyanın toqquşduğu əsas və təhlükəli problemlərdən olan terrorizm daha çox siyasi, etnik, dini və s. zəminində yaranır. Əlbəttə ki, bu siyasi, iqtisadi və mənəvi ziyanla nəticələnir və hər bir dövlət, hər bir insan bunun qurbanına çevrilə bilər. Azərbaycanın tarixində belə hadisələrin sayı kifayət qədərdir.

## BEYNƏLXALQ SƏNƏDLƏRİN MÜDDƏALARININ POZULMASI

Terrorları törədən ermənilərin son illərdə və 44 günlük Vətən müharibəsi dövründə törətdikləri vəhşi əməlləri faşist ideologiyasının sahibi olmalarının təsdiqidir. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozmaqda davam edib.

2011-ci il martın 8-də düşmən snayperi tərəfindən səkkiz yaşlı Fariz Arzu oğlu Bədəlov qətlə yetirildi. 2016-cı il Aprel döyüşlərində düşmənin Tərtərin Həsənqaya kəndini atəşə tutması nəticəsində 2000-ci il təvəllüdlü Kəlbəcər sakini Həsənli Turanə Kamandar qızı dünyasını dəyişdi. 2017-ci ilin iyul ayının 4-də Ermənistan silahlı qüvvələri tərəfindən Füzuli rayonunun Alxanlı kəndində məskunlaşan mülki əhalinin yaşadığı yaşayış məntəqələrinin və mülki obyektlərin qəsdən 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutulması nəticəsində, 1967-ci il təvəllüdlü yaşlı qadın Allahverdiyeva Sahibə və onun 2 yaşlı qız nəvəsi Quliyeva Zəhra həlak oldular. Təbii ki, mülki şəxslərin hədəfə alınması qəbuledilməzdir.

Bu və ya digər faktlar Ermənistanın Azərbaycanın mülki əhalisinə, xüsusilə uşaqlara qarşı vandalizminin sonu deyildi. 44 günlük Vətən müharibəsində xalqımız erməni terrorlarının daha acı nəticələrini yaşamış oldular. İşğalçı Ermənistan silahlı qüvvələri oktyabrın 11-də cəbhə bölgəsindən və münaqişə zonasından kənar yerləşən Gəncənin mərkəzi hissəsində yerləşən yaşayış binalarını raket atəşinə tutması nəticəsində 3-ü qadın olmaqla 9 nəfər həlak oldu, 16 qadın, 6 azyaşlı olmaqla 35 nəfər yaralandı. Vurğulamaq yerinə düşər ki, müharibə dövründə Goranboy rayonunun Qızılhacılı kənd sakini 2011-ci il təvəllüdlü Həsənov Elcan Elgün oğlu və Ağcabədi şəhərindən olan 2015-ci il təvəllüdlü İbrahimova Ayan Rövşən qızı yaralandı. Erməni terroru nəticəsində Ağcabədi rayonunun Taynaq kənd sakini, 2006-cı il təvəllüdlü İsgəndərov Fərid Dilafət oğlu, Naftalan rayonunun Qaşaltı kənd sakinləri 2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov və 2006-cı il təvəllüdlü Fidan Qurbanova həlak oldular.

44 günlük Vətən müharibəsi dövründə erməni hərbçiləri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq Azərbaycanda mülki əhalinin sıx yaşadığı məntəqələrə zərbələr endirib. Artilleriya atəşi nəticəsində dinc sakinlərin evləri dağılıb, infrastruktura ciddi ziyan dəyib. Bütün bunlara baxmayaraq Azərbaycan xaqqı 44 günlük müharibədə Zəfər qazandı. Yaşadığımız tarix göstərir ki, erməni terrorlarının ölkəmizdə sayı-hesabı yoxdur.

Ermənistanın Azərbaycana hərbi təcavüz nəticəsində, insan hüquqları kobudcasına pozulub, etnik təmizləmə siyasəti və terror aktları günahsız azərbaycanlının həyatına son qoyulub. Bu, nə insanlığa, nə də beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən hüquqi normalara sığır.

***Nəzakət ƏLƏDDİNQIZI***

***Əksəriyyəti nisbətən yüngül və qısamüddətli olan COVID-19 peyvəndi etdirdikdən sonra yan təsirlərin yaşanması qeyri-adi deyil. Bunlara tez-tez digər peyvəndlərlə qarşılaşa biləcəyiniz yan təsirlər, məsələn, inyeksiya yerində ağrı, yorğunluq və qripə bənzər simptomlar daxildir.***

# Artan ölümlərin səbəbi: COVİD PEYVƏNDİ?




SİA mövzu ilə bağlı araşdırma aparıb.

Avropada aparılan tədqiqatlar nəticəsində HPV peyvəndinin yaratdığı bütün əks təsirlərin Covid olduğu sübut edilib. Belə ki, Covid peyvəndinin damar və qanda laxtalanma, tromp yaranmasını sürətləndirməsi barədə hələ pandemiya dövründən xəbərdarlıq edən türk həkim Canan Karatay yeni elmi araşdırmadan danışıb. Canan Karatayın sözlərinə görə, kütləvi covid peyvəndindən sonra xərçəng, dəri xərçəngi, autizm, qəfil ölümlər, ifliclər və ana ölümləri kəskin artıb. Çünki covid peyvəndi qanı laxtalandırır, damarları tromplaşdırır. Canan Karatay bütün covid peyvəndi olunanların ildə 1-2 dəfə həkim müayinəsindən keçmələrini, qan duruldacularla müalicə alıb sağlamlıqlarına diqqət yetirməklərini tövsiyə edib.







### Dünya

Yan təsirlər sizə verilən peyvəndin növündən və onun ilk və ya sonrakı peyvəndiniz olub-olmamasından asılı olaraq dəyişə bilər. COVID peyvəndi alan bir çox insanda heç bir yan təsir göstərmir.

Ürək iltihabı və anafilaksi də daxil olmaqla ciddi yan təsirlər riski olsa da, faydaları ilə müqayisədə riskin kiçik olduğu düşünülür. Kolumbiya Universitetinin araşdırmasına görə, ABŞ-da COVID-19 peyvəndi 2021-ci ildən 2022-ci ilə qədər ən azı 8,3 milyon infeksiyanın, 681,000 xəstəxanaya yerləşdirilmənin və 118,000 ölümün qarşısını alıb.

### COVID-19 peyvəndlərinin ümumi yan təsirləri hansılardır?

2024-cü ilə qədər ABŞ Qida və Dərman İdarəsi (FDA) tərəfindən istifadə üçün təsdiqlənmiş üç COVID-19 peyvəndi var:

Pfizer-BioNTech (Comirnaty markası altında satılır), mRNA peyvəndi

Moderna (Spikevax markası altında satılır) həm də mRNA peyvəndidir

Novavax, bir protein subunit peyvəndi

Yan təsirlər nə qədər tez inkişaf edir?

Eyni şəkildə, bəzi insanlar COVID peyvəndinin yan təsirlərini yaşayır, digərləri isə yox. Həmçinin, yan təsirlərin vaxtı dəyişə bilər. Əksər insanlar üçün yan təsirlər ilk peyvənddən sonra 14 saat ərzində, sonrakı peyvəndlərlə isə bir qədər uzun müddət ərzində baş verir.

Çox kiçik bir qrup insanda yan təsirlər bir neçə dəqiqə ərzində baş verə bilər. Ani bir reaksiya narahatlıq doğurur, çünki bu, anafilaksi kimi tanınan potensial həyati təhlükəsi olan bütün bədən allergiyasının əlaməti ola bilər. Reaksiya nə qədər tez baş verərsə, bunun ehtimalı bir o qədər yüksəkdir. Anafilaksi ilə bir şəxs tənəffüs çətinliyi, anormal ürək ritmləri və ya başgicəllənmə ilə qarşılaşacaq. Təcili tibbi yardım göstərilmədikdə anafilaksi şok, komaya və hətta ölümə səbəb ola bilər. Buna görə də, tibb işçiləri peyvənddən sonra 15 dəqiqə gözləməyi xahiş edəcəklər ki, anafilaksiya əlamətləri baş verərsə, tədbir görülə bilsin. Harvard Tibb Məktəbinin 2023-cü ildə apardığı araşdırmaya görə, COVID peyvəndi alanlar arasında anafilaksi dərəcəsi milyonda bir hadisədir.





### Yan təsirlər nə qədər davam edir?

COVID peyvəndindən sonra yan təsirlər, əgər varsa, adətən bir-üç gün davam edir. İşə və ya məktəbə getməyi tələb edəcək qədər şiddətli simptomlar nadirdir. Mayo Clinic-dən 2021-ci ildə edilən bir araşdırma, COVID peyvəndi alan tibb işçiləri arasında işdən çıxma nisbətinin 4,1% olduğunu bildirdi.

Yan təsirlər bundan daha uzun sürə bilər, lakin onların bir və ya iki həftədən çox davam etməsi nadirdir. Nadir hallarda, bir şəxs hər hansı başqa izahat olmadan dörd həftədən çox davam edən yan təsirlər kimi təyin olunan uzun müddət ərzində COVID-dən sonrakı peyvənd sindromunu (LPCVS) inkişaf etdirə bilər. Bəzi halların 11 aya qədər davam etdiyi bildirilir. Simptomlara tez-tez davamlı baş ağrısı, oynaq ağrısı, əzələ krampları, yuxusuzluq, görmə pozğunluğu və "beyin dumanı" daxildir.

### COVID-19 peyvəndlərinin yan təsirləri nə qədər yayılıb?

Pandemiyanın əvvəlində insanların əksəriyyəti peyvəndlərin yan təsirləri ilə qarşılaşdı. Bunun səbəbi, insanların ilk dəfə peyvəndlərə məruz qalması və demək olar ki, həmişə daha güclü immun reaksiyaya sahib olmasıdır. Bu gün tək dozada verilən bəzi peyvəndlər o dövrdə iki dozada verilirdi. O zaman 77%-ə qədəri birinci dozadan sonra, 86%-i isə ikinci dozadan sonra yan təsirlər yaşadı. Əksəriyyətində yorğunluq və qızdırma kimi aşağı dərəcəli yan təsirlər var idi.

Hal-hazırda, bildirilən yan təsirlərin nisbəti nisbətən azdır. Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzlərinin (CDC) və Peyvəndin Mənfi Hadisələri Hesabat Sisteminin (VAERS) məlumatlarının icmalına görə, ABŞ-da insanların yaşadığı ən çox görülən yan təsirlər baş ağrısı (15,7%), qızdırma (13,6%) və yorğunluq (13,5%).

### Ciddi yan təsirlər və fəsadlar

Anafilaksi riskinə əlavə olaraq, digər potensial ciddi yan təsirlər miokardit (ürək əzələsinin iltihabı) və perikarditdir (ürəyin xarici qişasının iltihabı). Bu yan təsirlər daha çox 12-40 yaş arası kişilərdə olur. Bunların dəqiq səbəbi tam başa düşülməsə də, əksər hallar mRNA COVID-19 vaksininin (Comirnaty və ya Spikevax) ikinci dozasının qəbulundan sonra yeddi gün ərzində baş verir.

Novavax protein subunit peyvəndi ilə peyvəndin bu yan təsirlərin riskini artıra biləcəyinə dair bəzi sübutlar da var. Miokardit və perikardit nadirdir və peyvənd olunmuşlara nisbətən COVID-ə yoluxan insanlarda daha tez-tez baş verir. Bu, peyvəndin faydalarının risklərindən daha çox olduğunu göstərir.

Miokardit və perikardit qripə bənzər simptomların qəfil başlaması və aşağıdakılarla xarakterizə olunur:

- Sinə ağrısı və ya narahatlıq
- Sinə içində sıxılma hissi
- Fəaliyyət zamanı və ya yuxu zamanı nəfəs darlığı
- Qəribə yorğunluq
- Ürək döyüntüsü problemi
- Başgicəllənmə və ya huşunu itirmə

Peyvəndin səbəb olduğu miokardit və ya perikarditin simptomları ürək aritmiyaları (müntəzəm ürək döyüntüləri) və ürəyin dayanması (qəfil ürək dayanması) kimi nadir, lakin potensial ölümcül ağırlaşmalara nəzarət etmək üçün tez-tez xəstəxanaya yerləşdirilməsini tələb edir.

### COVID-19 peyvəndi sizi öldürə bilərmi?

Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzlərinin (CDC) 2024-cü ildə COVID-19 peyvəndindən sonra infarkt keçirən və ölüm halları keçirən az sayda şəxs üzərində apardığı araşdırma, bu şəxslərin hamısının COVID-19-dan asılı olmayaraq ürək xəstəliyindən ölüm riskinin olduğunu aşkar etdi. Peyvənddən sonra miokardit və ya perikardit inkişaf etdirən gənclərdə infarkt və ya ölüm riski yox idi.

### Xülasə

COVID-19 peyvəndlərinin ümumi yan təsirlərinə inyeksiya yerində ağrı, yorğunluq, əzələ ağrıları, oynaq ağrıları, qızdırma və baş ağrıları daxildir. Əksər hallar yüngül keçir, inyeksiyadan sonra 14 saat ərzində inkişaf edir və bir-dörd gün ərzində həll olunur. Ciddi yan təsirlər isə nadirdir.

***Ayşən Vəli***

ARAŞDIRMA

# İrəvanda təhsil

***"Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər.***

Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin", - deyə Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdir. Tarixən azərbaycanlıların köklü yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi İrəvan şöhrət tapmışdır.



İrəvan Gimnaziyasının şagird və müəllimlərindən bir qrupu

1881-ci ildə açılmış İrəvan kişi gimnaziyasının 216 şagirdi olmuş və gimnaziyanın direktoru Vladimir İosifoviç Brajnikov olmuşdur. Bu gimnaziyada görkəmli pedaqoq, maarifçi Firidun bəy Köçərli 10 il — 1885–1895-ci illərdə gecə tərbiyəçisi olmuş və sonra hazırlıq sinfində hüsnxət müəllimi kimi fəaliyyət göstərmişdir.

## İRƏVAN KİŞİ GİMNAZİYASININ MƏZUNLARI

Gimnaziyada təhsil müddəti 4 il olmuşdur. 1883-cü ildə gimnaziyada 37 azərbaycanlı oxuyurmuş. Gimnaziyanın ilk buraxılışı 1885-ci ildə olmuşdur. İrəvan gimnaziyası müsəlman şöbəsinin müdiri İsmayıl bəy Şəfibəyov olmuşdur. İrəvan Kişi Gimnaziyasının məzunlarından dünya şöhrətli alim, akademik Mustafa bəy Topçubaşov Kiyev universitetində, gimnaziyanın sonuncu qızıl medalçısı, görkəmli alim və ictimai xadim Əziz Əliyev Peterburq Hərbi Akademiyasında, professor Mehdi xan İrəvanski, məşhur alim, 1950-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyası Dil İnstitutunun direktoru. işləmiş Miryusif Mirbabayev, ictimai xadim Maqsud Məmmədov Moskva Universitetində, akademik Əhməd Rəcəbli İtaliyanın Peruça şəhərində Ali Kral Eksperimental Aqrar İnstitutunda, ziyalı ocağının layiqli övladları Adil və Əslidar Muğanlinski qardaşları Almaniyanın Leypsiq Universitetində sonralar təhsillərini davam etdirmişdilər. Akademik Heydər Hüseynov, böyük bəstəkarımız Səid Rüstəmov, görkəmli elm xadimi və ictimai xadim Həsən Seyidov, Hüseyn Şahtaxtinski, Mirhəsən Mirbabayev, Əbdülhəmid Qənizadə ilk təhsillərini İrəvan kişi gimnaziyasında almışlar. 1880–1886-cı illərdə Eynəli bəy Sultanov İrəvan Kişi Gimnaziyasında təhsil almış və buradan məzun olmuşdur.




İrəvan Pedaqoji Məktəbibin 1938-ci il buraxılışı

## İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI

Tarixi qədim olan İrəvada 1881-ci il noyabrın 3-də tərkibində iki sinif olmaqla İrəvan Müəllimlər Seminariyasının I sinfinin açılışı olmuşdur. Seminariyanın ilk direktoru Yakob Suşevskinin səyi nəticəsində birinci il seminariyaya 9 müəllim, 42 şagird cəlb edilib. 1882-ci ildə seminariyanın II sinfi, 1883-cü ildə III sinfi açılmışdır. Beləliklə, Qafqazda olan bütün müəllimlər seminariyası kimi, İrəvan müəllimlər seminariyası da 4 sinifdən ibarət olmuşdur. Sənədlərdə qeyd olunur ki, İrəvan Müəllimlər Seminariyasının pedaqoji kontingentinin formalaşmasında əsasən, Qori Müəllimlər Seminariyasının məzunlarından istifadə edilmişdir. Seminariyada müxtəlif fənlər tədris edilməklə yanaşı, bir sıra peşələr – xarratlıq, cildçilik işi, tərəvəzçilik və ipəkçilik fənləri də könüllü olaraq tədris olunurdu. İrəvan Müəllimlər seminariyasının ilk buraxılışı 1884-cü ildə olmuşdur. Həmin il məktəbin 5 nəfər məzunu olmuşdu. Tanınmış simalardan Haşım bəy Vəzirov, Həmid ağa Şahtaxtinski, Tağı bəy Səfiyev, İbadulla Muğanlinski, Şamil Mahmudbəyov, Cabbar Məmmədov və başqaları İrəvan Müəllimlər Seminariyasının məzunları olmuşlar.

1918-ci ilin mayında İrəvan quberniyasının ərazisində ilk erməni dövləti – Ermənistan Respublikası qurulduqdan sonra İrəvan Müəllimlər Seminariyasının fəaliyyətinə son qoyulmuşdur. İrəvan Müəllimlər Seminariyasının direktoru V.Dobrıninin 1918-ci ildə yazdığı hesabatda göstərilir ki, 1915-16-cı tədris ilində seminariyanı 19 nəfər, 1916-17-ci tədris ilində 22 nəfər, sonuncu – 1917-18-ci tədris ilində isə 23 nəfər azərbaycanlı bitirmişdir.

## CƏNUBİ QAFQAZDA MAARİFÇİLİK HƏRƏKATI

Belə bir elm, təhsil və mədəniyyət mərkəzi olan İrəvan tarixi dövründə bir çox ziyalılar nəsli yetirmişdir. Bu nəslin yetişməsində İrəvan Müəllimlər Seminariyasının rolu müstəsnadır. 37 ilə qədər fəaliyyət göstərən bu təhsil ocağı 1918-ci ilin 6 avqustunda İrəvan gimnaziyası və Uluxanlı məktəbi ilə eyni vaxtda bağlanmışdır.



İrəvan Gimnaziyasının şagird və müəllmlərindən bir qrupu

İrəvan xanlığı çar Rusiyasının tərkibinə qatıldıqdan sonra burada dünyəvi təhsilə xüsusi diqqət yetirilməsində həmin mühitin özü əhəmiyyətli rol oynamışdır. XIX əsrin ikinci yarısından etibarən Cənubi Qafqazda maarifçilik hərəkatı geniş vüsət aldı. Regionda dünyəvi təhsil verən yeni tipli məktəbin – İrəvan Müəllimlər Seminariyasının açılması da məhz bu vaxtlara təsadüf edir. 1881-ci ilin noyabr ayında fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası çar hakimiyyətinin bölgədəki maraqları naminə yaradılmasına baxmayaraq, 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksəkixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın ənənəvi dolğunluğunun və canlılığının qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərmişdir. Görkəmli maarifpərvər Firidun bəy Köçərli seminariyanın ilk müəllimlərindən olmuş, geniş mədəni-maarif işləri aparmışdır. Seminariyanın məzunları sırasında xalqımızın bir çox tanınmış şəxsiyyətləri və dövrünün görkəmli ziyalıları vardır. Bu tədris ocağının Azərbaycanda xalq məktəbi və maarifinin inkişafında müstəsna xidməti olub. Bu seminariyanı bitirmiş məzunların böyük əksəriyyəti Azərbaycanın ucqar qəza və kəndlərinə gedərək orada pedaqoji fəaliyyət göstərmişlər. İrəvan Müəllimlər Seminariyası pedaqoji fikir salnaməmizə yaddaqalan səhifələr yazmışdır.

## MÜƏLLİMLƏR SEMİNARİYASININ XƏLƏFİ - İRƏVAN TÜRK PEDAQOJİ TEXNİKUMU

1924-cü il oktyabrın 15-də isə İrəvan Müəllimlər Seminariyasının xələfi olan İrəvan Türk Pedaqoji Texnikumu fəaliyyətə başlayıb. Azərbaycan məktəbləri üçün müəllimlər hazırlayan bu təhsil müəssisəsinin yaranması uzun və çətin mübarizənin nəticəsində olmuşdur. Texnikumun ilk dövründə Mehdi Kazımov direktor, Bala Əfəndiyev ictimaiyyət müəllimi, Əsgər Əsgərzadə ana dili müəllimi, Cəmil Əliyev isə təbiət müəllimi kimi fəaliyyət göstərmişdir. Bülbül Kazımova da texnikumda dərs deyən ilk azərbaycanlı qadın idi. 1925-ci ildən texnikum Nəriman Nərimanov adına Türk Pedaqoji Texnikumu adlandırılıb. 1929-cu ilin iyun ayında İrəvan Türk Pedaqoji Texnikumunun ilk buraxılışı baş tutmuşdur. 1926-cı ildən qəbul olunmuş 32 tələbədən 20-si (18 oğlan, 2 qız) bu mərhələni tamamlayıb. 1934-cü ildə ali təhsilli müəllimlərin cəlb edilməsi ilə tədrisin keyfiyyəti artır. Texnikum 1934-cü ildə Ümumittifaq texnikumlar yarışında birinci olub 7 min manat pul mükafatı qazanmışdır.

Onu da qeyd edək ki, Azərbaycan məktəbləri üçün pedaqoji kadrlar hazırlayan tədris müəssisəsinin yaradılması ideyası ilk dəfə 1922-ci il yanvarın 30-da Ermənistan Kommunist Partiyasının birinci qurultayında gündəmə gətirilsə də, həmin dövrdə bu tələblər diqqətə alınmamışdı. Bununla belə, Azərbaycan məktəblərində müəllim çatışmazlığı problemi həlı də vacib məsələlərdən biri kimi qalırdı. Mənbələrdə qeyd olunduğu kimi, 1923-cü il martın 29-da keçirilən EKP-nin ikinci qurultayında azərbaycanlı pedaqoji kadrların hazırlanması məsələsi bir daha müzakirəyə çıxarılsa da, bu problem həll edilməmiş qaldı. Qurultayda Ermənistanın şovinist dairələri və Xalq Maarif Komissarı A. Mravyan Azərbaycan məktəblərinin müəllim ehtiyacını yerli kadrların hazırlanması ilə deyil, Azərbaycandan pedaqoji kadrların dəvət edilməsi yolu ilə aradan qaldırmağı daha məqbul hesab edirdilər.

## AZƏRBAYCANLILAR ÜÇÜN MÜSTƏQİL PEDAQOJİ TƏDRİS MÜƏSSİSƏSİ

Azərbaycanlılar arasında maarif işlərini gücləndirmək məqsədilə 1922-ci ildə Ermənistan Xalq Maarif Komissarlığı yanında "Azlıqda qalan Millətlər Bürosu" yaradıldı və İrəvanın tanınmış maarifçisi Mehdi Kazımov həmin büronun müdiri təyin edildi. Eyni zamanda, Ermənistan K(b)P MK yanında "Azsaylı Xalqlar Şöbəsi" də fəaliyyət göstərirdi, onun rəhbəri Bala Əfəndiyev idi. Onların təşəbbüsü ilə 1922-ci ilin sonlarında İrəvanda hazırlıq kursları təşkil edildi. Müəllim kadrlarına olan böyük ehtiyacı ödəmək üçün kurslardan keçənlər məktəblərə müəllim kimi göndərilirdi, lakin bu tədbirlər kifayət etmirdi. Bu ehtiyacı ödəmək üçün Bala Əfəndiyev və Mehdi Kazımovun səyləri nəticəsində 1923-cü ilin noyabr ayında İrəvanda 2 aylıq yay hazırlıq kursu təşkil edildi. Bu dövrdə İrəvanda azərbaycanlı qızlar məktəbi, İrəvan yeddillik azərbaycanlı məktəbi və bir neçə beynəlmiləl məktəbin Azərbaycan bölmələri fəaliyyət göstərirdi. 1923-cü ilin sonlarında təşkil olunmuş bu hazırlıq kurslarında 1926-cı ilə qədər 143 müəllim hazırlanmışdır ki, bunlardan da 6 nəfəri qadın idi. Bütün görülən tədbirlərə baxmayaraq, azərbaycanlı məktəbləri üçün müəllim kadrlarına olan ehtiyac tam şəkildə qarşılanmırdı. Ermənistanın şovinist dairələri isə azərbaycanlılar üçün müstəqil bir pedaqoji tədris müəssisəsinin açılmasına qarşı çıxır, bunun əvəzində Erməni Pedaqoji Texnikumunun nəzdində Azərbaycan şöbəsinin yaradılmasını təklif edirdilər.

Nəticədə 1924-cü il oktyabrın 15-də İrəvanda Türk Pedaqoji Texnikumu təsis edildi. Bu Texnikumun açılması Azərbaycan məktəblərində müəllim kadrlarına olan ehtiyacın aradan qaldırılması işinin müəyyən dərəcədə qaydaya salınması sahəsində ilk addım oldu.

İrəvan Azərbaycan Pedaqoji Məktəbinin yaradılması, Qərbi Azərbaycanda yaşayan azərbaycanlılar üçün əhəmiyyətli bir hadisə olmuşdur. Məktəbin 15 illik yubileyi 1940-cı ildə qeyd edilmiş, bu müddət ərzində məktəb 1228 müəllim hazırlamışdır. 1948-ci ilin noyabr ayının ortalarına kimi İrəvanda fəaliyyət göstərən İrəvan Azərbaycanlı Pedaqoji Texnikumu təkcə tədris müəssisəsi kimi deyil, eyni zamanda Qərbi Azərbaycanda Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin inkişafında və qorunmasında böyük rol oynamışdır.

*Nəzakət ƏLƏDDİNQIZI*




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Qoca dünyanın qocalan əhalisi: Demoqrafik təhlükə qapıda, uşaq doğumu niyə azalır?

## 20 noyabr Ümumdünya Uşaq Hüquqları Günüdür

***Son onilliklərdə dünyanın əksər regionlarında doğum səviyyəsi aşağı düşür. Eyni zamanda yeni ailələrin sayı azalır, boşanmalar sürətlə artır. Nəticədə getdikcə gənclərin çəkisi azalır və əhali qocalır. Əvvəllər bu, ilk növbədə zəngin ölkələrin problemidi idi, lakin son vaxtlar gəlirləri aşağı olan ölkələrdə bu tendensiya sürətlənir. Maraqlıdır ki, boşanmaların minimum, uşaq doğumunun yüksək olduğu ölkələr sosial-iqtsadi cəhətdən aşağı, dini-mənəvi cəhətdən yüksək cəmiyyətlərə malikdir.***

Məsələn, Hindistanda boşanmalar dünya üzrə ən minimum həddədir-1 %. Uşaq doğumu da dünya ortalamasından 2 dəfə yüksəkdir. Məhz buna görə keçən il Hindistan Çini də ötərək 1,5 milyard əhali sayı ilə dünyada 1-ci oldu. İnduizmin hakim olduğu ölkələrdə də təxminən eyni vəziyyətdir, baxmayaraq ki onların çoxunda sosial-iqtisadi vəziyyət qənaətbəxş deyil.

Eyni zamanda əksər müsəlman ölkələrində də boşanma faizi çox aşağı, doğum səviyyəsi yuxarıdır. Boşanmaların yüksək olduğu, doğumun isə çox aşağı olduğu müsəlman ölkələri Türkiyə və Azərbaycandır, hər ikisində boşanma səviyyəsi 50 faizi keçib, uşaq doğumu 30 il əvvələ nisbətən 2 dəfə azalıb. Bu da təkcə sosial iqtisadi problemlərlə yox, daha çox aparılan təbliğatlar nəticəsində mənəvi dəyərlərdən və milli mədəniyyətdən uzaqlaşma, Qərb dəyərlərinin qəbul edilməsi ilə bağlıdır.

Çünki, sosial-iqtisadi vəziyyətin daha aşağı olduğu digər müsəlman ölkələrində bu sahədə vəziyyət çox yaxşıdır. Bütün bu faktlar onu göstərir ki, boanmaların artmasında və uşaq doğumunun azalmasında əsas faktor heç də sosial-iqtisadi problemlər deyil, əsas problem mənəvi-psixoloji deqradasiyadır. Lakin bu yeganə səbəb deyil, əlbəttə ki, sosial-iqtisadi faktorların da müəyyən payı var.

Ona görə də, bəzi ölkələr sosial rifahın artırılması ilə problemin həllinə- ailələrin qorunmasını və doğumun artırılmasını stlmullaşdırmağa çalışır. Buna pronatalist siyasət deyilir. Lakin bu siyasətin ciddi nəticə verdiyini söyləmək olmaz, qlobal statistikalar göstərir ki, təkcə bu tədbirlərlə məsələ həll olunmur. Qısa tarixi arayışla vəziyyətə baxaq.

Bir çox zəngin ölkələrdə, hələ 1970-ci illərin əvvəllərində, əhali artımında məhsuldarlıq əmsalı əvəzetmə səviyyəsinə (bu, hər qadına orta hesabla 2,1 doğum hesab edilir) və ya hətta ondan da aşağı düşmüşdü. İndi əksər inkişaf etməkdə olan ölkələrdə vəziyyət bu göstəricidən xeyli geri qalır. Ən pis vəziyyət Tayvan (Çin) və Cənubi Koreyadadır- hər qadına təxminən 1,1 uşaq.

BMT-nin bu il dərc etdiyi məlumatlara görə, bütövlükdə qlobal doğum nisbəti orta hesabla bir qadına 2,25 uşaq göstərilib. Lakin bu orta göstərici yoxsul ölkələrin yüksək göstəriciləri sayəsindədir, inkişaf etmiş ölkələrdə bu rəqəm xeyli aşağıdır.

Yaxın vaxtlara qədər dünyanın ən sıx məskunlaşmış ölkəsi olan Çin doğum səviyyəsinin azalmasını deyil, artmasını problem hesab edirdi. 1970-ci illərin sonlarından tətbiq edilən "1 ailə 1 uşaq" siyasəti yalnız 2015-ci ildə ləğv edildi. Lakin artıq 2022-ci ildə ölkə əhalisinin sayında son 60 ildə ilk dəfə azalma baş verdi və 2023-cü ildə Çin əhalinin sayına görə liderliyini Hindistana uduzdu. Lakin Hindistanın da bu sahədə problemləri var. Orada doğum səviyyəsi 2020-ci illərin əvvəllərindən başlayaraq aşağı düşür.

Ən çox artımın müşahidə olunduğu regionlarda da bu tendensiya davam edir. Həm Şimali Afrikada, həm də Yaxın Şərqdə göstəricilər aşağı düşür.

Hazırda dünya regionları arasında ən yaxşı artım səviyyəsi Mərkəzi Afrika olaraq qalır, lakin qlobal tendensiya oraya da öz təsirini göstərib. Bu regionda orta doğum səviyyəsi 1990-cı ildə bir qadına düşən 6,3 uşaqdan 2019-cu ildə 4,3-ə qədər azalıb. BMT-nin məlumatına görə, regionda müasir kontrasepsiya üsullarından istifadə edən anaların nisbəti 34,1%-ə çatıb.



Pensilvaniya Universitetinin (ABŞ) demoqrafı və iqtisadçısı Jesus Fernandez-Villaverde deyir: "Qarşıdan demoqrafik qış gəlir. BMT əsrin sonuna qədər dünya əhalisinin artımızın zəifləyəcəyini və azalmağa başlayacağını proqnozlaşdırır".

Bir çox ölkələrin hakimiyyət orqanları bu vəziyyətdən narahatdır. Axı doğum səviyyəsinin aşağı düşməsi işçi qüvvəsinin azalmasına, iqtisadi artımın ləngiməsinə gətirib çıxarır və əhalinin qocalması ilə birlikdə pensiya sisteminin yükünün artmasına səbəb olur. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının məlumatına görə, bəzi Qərbi Avropa və Şərqi Asiya ölkələrində 2050-ci ilə qədər 65 yaşdan yuxarı insanlar əhalinin təxminən 40%-ni təşkil edəcək. Bu isə həmin ölkələrinin gəlirlərini azaldacaq, xərclərini çoxaldacaq.

Təəccüblü deyil ki, bu təhlükəni görən bir çox ölkələr pronatalizm bayrağını qaldırıb doğum səviyyəsini stimullaşdırmağa yönəlmiş tədbirləri götürdülər. Məsələn, İtaliyanın baş naziri Corciya Meloni demoqrafik artımı ölkə hakimiyyətinin prioriteti adlandırıb.

Fransa, qəbul edilmiş minimum normadan aşağı olsa da, Avropada ən yüksək (bir qadına 1,8 uşaq) doğum səviyyəsinə malikdir. Dövlət ödənişləri isə 2-ci uşaqdan başlayır, 3 və daha çox uşaq olanda isə artır, onlara müxtəlif müavinətlər əlavə olunur. Avropanın əksər ölkələrində də təxminən bu səviyyədə sosial dəstək siyasəti yürüdülür.

Doğumun kəskin azalması fonunda həmişə əhalisini miqrantlarla cavanlaşdırmağa çalışan Avropa ölkələri artıq bu siyasətin optimal çıxış yolu olmadığını başa düşərək, öz vətəndaşları arasında uşaq doğumunun artırılmasını stimullaşdırmaq üçün sosial siyasəti gücləndirirlər. Bir çox başqa ölkələr də eləcə.

Ötən il Yaponiyanın baş naziri Fumio Kişida bildirmişdi ki, ölkədə doğum nisbətinin kəskin azalması "bu vəziyyətdə bir cəmiyyət olaraq fəaliyyət göstərə bilərikmi" sualını aktuallaşdırıb. Sosioloqlar və iqtsadçılar bunun çox çətin olacağını bilirlər.

Yaponiyada hələ 1990-cı illərdən pronatalist tədbirlər tətbiq edilməyə başlanıb- valideyn məzuniyyətinin tətbiqi, uşaq bağçalarının əlçatanlığının artırılması, uşaqlı ailələrə subsidiyalar, 3-cü və sonrakı uşaqların doğulması üçün ödənişlər. 2005-ci ildə ölkədə hər qadına 1,26 uşaq düşürdüsə, 2015-ci ildə bu göstərici 1,45-ə yüksəldi, lakin 2022-ci ildə yenidən 1,26-ya düşdü.

Bu il hökumət yeni tədbirlər proqramı təqdim edib. Bunlara 18 yaşına çatmamış uşaqlar üçün müavinətlərin tətbiqi, valideyn məzuniyyəti zamanı demək olar ki, tam maaşların ödənilməsi və s. daxildir. Bununla belə, bir çox siyasətçilər hesab edirlər ki, xüsusən də yerli əhalinin iş gərginliyini nəzərə alsaq, təkcə pul deyil, həm də vaxt stimul ola bilər. Yaponiyada işçilər ailəsinə vaxt sərf etməkdə çətinlik çəkirlər. Çünki kapitalizmin amansız rəqabəti şəraitində işlərini itirməmək üçün fasiləsiz və məzuniyyətsiz işləməyə məcbur olurlar. Axırda hökumət məcbur olub hər işçinin ildə ən azı 5 gün məcburi məzuniyyətə göndərilməsini tələb edən qərar verdi. Bir çox siyasətçilər 4 günlük iş həftəsini müdafiə edirlər ki, yaponlar ailələri ilə daha çox vaxt keçirsinlər.

Macarıstanda genişmiqyaslı artımın təşviqi proqramı həyata keçirilir. Dəstək tədbirlərinə mənzil alınması üçün subsidiyalar, aşağı faizli kreditlər və borcların bir hissəsinin silinməsi daxildir.

Rəsmi məlumata görə, subsidiyalar artıq təxminən 250 min ailənin mənzil almasına kömək edib. Ötən il 30 yaşınadək 4 və daha çox uşaq sahibi olan valideynlər gəlir vergisindən ömürlük azad ediliblər. Ümumilikdə, Macarıstan ÜDM-nin təxminən 3%-ni ailələrin saxlanmasına sərf edir və yaxın illərdə bu pay 5%-ə yüksələ bilər.

Bu tədbirlər nəticəsində ölkədə doğum səviyyəsi, bir qədər artıb- 2010-cu ildəki 1,25 uşaqla müqayisədə sonrakı 10 ildə 1,6-ya çatıb. Lakin son 3 ildə ölkədə doğulan uşaqların sayı azalır. Belə ki, 2024-cü ilin 1-ci yarısında ölkədə doğum səviyyəsinin maksimumunu göstərdiyi 2021-ci ilin eyni dövrü ilə müqayisədə 14% az uşaq doğulub.

Polşada "Rodzina 500+" (Ailə 500+) proqramı 2016-cı ildə təsdiqlənib. O, digər məsələlərlə yanaşı, uşaqlı ailələrə birdəfəlik ödənişlər, mənzil almaq üçün daha əlverişli şərait, müavinətlər və s. nəzərdə tutur. Polşada doğum səviyyəsi 2005-ci ildə bir qadına düşən 1,2 uşaqdan 2017-ci ildə 1,5-ə yüksəldi, lakin 2022-ci ilə qədər yenidən azaldı- 1,3-ə qədər.

ARAŞDIRMA

Ardı Səh. 15

# Qoca dünyanın qocalan əhalisi: Demoqrafik təhlükə qapıda, uşaq doğumu niyə azalır?



Əvvəli-Səh-14

Skandinaviya ölkələrində məhsuldarlıq siyasəti əsasən qadınların doğuşdan sonra işləməyə davam edə bilməsini təmin etməyə yönəlib. Bu ölkələrdə çoxlu körpələr evi və uşaq bağçaları var və onlara subsidiya verilir. Belə ki, İsveçdə valideynlər özləri xərcin cəmi 11%-ni ödəyirlər. Nəticədə, İsveç, Norveç və Danimarkada 2 yaşından kiçik uşaqların yarıdan çoxu uşaq bağçasına gedir. Aİ-də bu orta hesabla 30% təşkil edir.

Bəzi ölkələr ana ilə yanaşı ata üçün də atalıq məzuniyyətini təşviq edir. Məsələn, İsveçdə hər bir valideyn 8 aylıq belə məzuniyyət götürə bilər. Digər imtiyazlar və subsidiyalar da var. Bir müddət Skandinaviya ölkələrində doğuş nisbətləri bir qədər yüksəldi, lakin sonra kifayət qədər aşağı səviyyədə sabitləşdi: Danimarkada 1,6, İsveçdə 1,5, Norveçdə 1,4. Xatırlayaq ki, ən minimal səviyyə 2,1 olmalıdır.

ABŞ-da builki seçki kampaniyasında doğum məhsuldarlığı mövzusu kifayət qədər fəal şəkildə istifadə olundu. Donald Tramp doğum nisbətinin maliyyə stimullaşdırılmasının ("yeni körpə bumu naminə bonuslar") lehinə danışıb. Kamala Harrisin proqramına uşaq doğulduğu halda 6 min dollara qədər vergi güzəştləri nəzərdə tutan bənd daxil idi.

Çində hökumət doğum nisbətinin artırılmasına qərar verəndə, ideoloji işə başladılar. Partiya iclasları "evlilik və uşaq sahibi olmağa müsbət baxış"ın təbliği məqsədilə keçirilir. Vaxtilə "bir ailə-bir uşaq" siyasətini təbliğ edən məmurlar və ailə planlaması təşkilatlarının üzvləri indi tez-tez yeni evlənənlərlə danışaraq nə vaxt uşaq dünyaya gətirmək istədiklərini öyrənirlər və ya reproduktiv sağlamlığı yaxşılaşdırmaq üçün dəstək təklif edirlər. Bundan əlavə, Çin ciddi sosial dəstək tədbirlərini də həyata keçirir, məsələn, mənzil alınması üçün subsidiyalar, vergi endirimləri, valideyn məzuniyyətinin uzadılması və s.

Qırğızıstan çoxuşaqlılığın stimullaşdırılması üçün ciddi tədbirlər başlayır. Milli Təhlükəsizlik Komitəsinin sədri Kamçıbek Taşiyevin sözlərinə görə, 2025-ci ilin yanvarından ailədə doğulan 4-cü uşağa görə 100 min som (~2 min AZN), 5-ci uşağa görə 600 min som (~12 min AZN), 6-cı və 7-ci uşağın hər birinə görə 1 mln som (~20 min AZN), 8-ci və 9-cu uşağın hər birinə görə 1,5 mln som (~30 min AZN), 10-cu uşağa görə isə 2 mln som (~40 min AZN) K.Taşiyev deyib ki, əhali sayını 15 milyona çatdırmaq dövlət üçün strateji məsələdir. Hazırda ölkənin 5,7 milyon əhalisi var.

Rusiyada ailələrin dəstəklənməsi üçün ciddi tədbirlər görülür. Federal analıq kapitalı 2007-ci ildən tətbiq olunur. 1-ci uşağa görə manatla ifadədə 11 min AZN, 2-ci uşağa görə 14 min AZN, 3-cü uşağa görə 17 min AZN dəyərində vəsait ödənilir. Həmçinin, regionlardan asılı olaraq hər uşağa görə aylıq 200-300 manat məbləğində uşaqpulu verilir. Bundan başqa, 3 uşaqdan sonra ailələrə torpaq sahəsi, 5 uşaqdan sonra avtomobil və mənzil verilir. Rusiyada 20 ildən artıq davam edən ailələrə iri məbləğdə xüsusi pul mükafatı da nəzərdə tutulub.

Ermənistanda doğum müavinəti 1-ci və 2-ci uşağa görə 1320 manat, 3-cü və 4-cü uşağa 4380 manat, 5-ci və daha sonrakı uşaq üçün 6580 manat təşkil edilir. Əkiz uşaqların hər birinə birdəfəlik ödəniş 3200 manatdır.

2023-cü ildən əvvəl doğulmuş uşaqlara aylıq uşaqpulu 2 yaşınadək 140 manat təşkil edir. 3 və daha çox uşaq olan ailələrdə uşaqların hər birinə ayda 220 manat dəyərində ödəniş edilir. 2023-cü ildə və daha sonra doğulmuş uşaqların valideyni analıq işləyirsə 140 gün analıq məzuniyyəti verilir və öz orta aylıq əməkhaqqı qədər müavinət alır. İşləməyən qadınlar isə 700 manata yaxın vəsait alır.

Müxtəlif ölkələrin hakimiyyət orqanlarının müraciət etdiyi əsas müsbət tədbirləri 3 qrupa bölmək olar:

müavinətlər və subsidiyalar, kreditlər üzrə aşağı faizlər, bəzən isə uşaq doğulması zamanı birbaşa ödənişlər (analıq kapitalı); işləyən valideynlərin uşaqları böyütməsinə kömək edən infrastrukturun yaradılması-körpələr evi, uşaq bağçası, bura atalar üçün valideyn məzuniyyətinin stimullaşdırılması da daxildir; sosial maarifləndirmə- ailə qurulmasının və uşaq sahibi olmağın təbliğ edilməsi.

Amma bunların hamısı sadəcə stimuldur, məcburetmə deyil, bu səbəbdən əksər ölkələrdə bunlar ciddi nəticə verməyib. Demək problem təkcə, maddi-sosial təminatda deyil. Uşaq doğmayan və ya 1-2 uşaqla kifayətlənən ailələrin çoxu maddi cəhətdən imkanlı ailələrdir. Onları buna məcbur etməyin heç bir mexanizmi yoxdur.

Tarixən SSRİ-də və sosialist düşərgəsinin əksər ölkələrində qüvvədə olan uşaqsızlığa görə vergi təyin edilməsi də təsirli tədbir hesab oluna bilər. Bir sıra tədqiqatçılar qeyd edir ki, burada aborta ciddi qadağa qoyulması da vacib tədbir ola bilər. Yeri gəlmişkən, abortlarla bağlı dünyada vəziyyət çox faciəvidir. Hər on milyonlarla körpə ana bətnində qətl edilir. Bir sıra ölkələrdə (əsasən islam ölkələrində) abort qəti qadağan edilib və yalnız məcburi hallarda (məsələn, zorlanmış qadının təcavüzkardan uşaq dünyaya gətirmək istəməməsi) və ya xüsusi tibbi göstəriş zamanı (ananın sağlamlığına ciddi təhlükə yaranarsa) həyata keçirilir.

Doğum nisbətini artırmaq məqsədilə abort əleyhinə qanunların sərtləşdirilməsinin nadir nümunələrindən biri İranın 2021-ci ildə qəbul etdiyi "Ailələrin qorunması" qanunudur. Bu qanun tibb müəssisələrində kontrasepsiya vasitələrinin pulsuz paylanmasının qadağan edilməsi və sterilizasiya prosedurlarından keçmək imkanlarının məhdudlaşdırılması ilə yanaşı, abortlara görə cəzaları sərtləşdirir. Eyni zamanda, bir çox digər ölkələr kimi, İranda da hamiləliyin dəstəklənməsi tədbirləri var: uşaqlı ailələr üçün güzəştli kreditlər, 9 aylıq analıq məzuniyyəti, 3 və ya daha çox uşağı olan analar üçün pulsuz tibbi sığorta və s.

Alimlər müxtəlif ölkələrdə doğum nisbətinin azalmasının səbəbləri ilə əsaslı bir izahata, həmçinin, doğumun artırılmasında hansı tədbirlərin mütləq təsirli olacağına dair bir anlayışa sahib deyillər. Çünki, məsələyə maddi cəhətdən yanaşılır, mənəvi faktorlar gözardı edilir. Təcrübə və faktlar əsasında yuxarıda göstərdiyimiz kimi, problemin böyük hissəsi heç də maddi cəhətlə bağlı deyil, mənəvi böhranla bağlıdır.

Ölkələrdə bu səbəblərdən biri və ya digəri əsas paya malik ola bilər. Məsələn, İtaliya və İspaniyada çox aşağı doğum göstəriciləri qeydə alınıb- bir qadına müvafiq olaraq 1,3 və 1,2 uşaq. Halbuki, hər iki ölkənin nisbətən mühafizəkar və dindar hesab edilməsinə baxsaq, doğum nisbəti artıq olmalı idi. Amma bir çox ekspertlərin qeyd etdiyi kimi, buradakı doğum səviyyəsinə iqtisadiyyatın çöküşü, gənclər arasında yüksək işsizlik və buna görə də gənclərin uzun müddət valideynləri ilə yaşaması təsir edir.

Nəticədə, alimlər və sosioloqlar məhsuldarlığın aşağı düşməsini müxtəlif səbəblərlə əlaqələndirirlər. Normal həyat keyfiyyəti və uşaqların tərbiyəsi və təhsilinə nə qədər ciddi yanaşmalı olduğumuz haqqında yeni fikirlərdən tutmuş şəhərləşməyə, internetdən geniş istifadəyə və gənclər arasında ailəyə marağın azalmasına qədər. Aydın olur ki, əsas səbəb heç də sosial problemlər deyil, mənəvi deqradasiya və psxioloji problemlərdir.

2021-ci ildə Merilend Universitetinin alimləri Amerikanın müxtəlif ştatlarında doğum nisbətləri ilə kontrasepsiya vasitələrinin mövcudluğundan və abort qanunlarının xüsusiyyətlərindən tutmuş dindarlıq səviyyəsinə qədər, həmçinin sosial rifah, yaşayış dəyəri və mənzil qiymətləri də daxil bir sıra amillər arasında əlaqəni araşdıran bir araşdırma dərc etdilər. Və bu parametrlər arasında heç bir aşkar korrelyasiya görə bilmədilər, doğum nisbətinin nə üçün azalmasının aydın izahını tapmadılar.

Biz fərz edirik ki, bu dəyişiklik cəmiyyətdə ölçülməsi çətin olan geniş dəyişiklikləri əks etdirir"- tədqiqat müəllifləri dedilər. Elmi araşdırmaya bax. Bunun harası elmdir? Dəyişikliklərin nədən ibarət olduğunu görmürlər: Məgər görmürlər ki, problem sosial-iqtisadi mühitdə deyil? İnsanlar soşial təminat cəhətdən 30 il əvvəkində çox da fərqli yaşamırlar. Lakin həyat tərzi, mənəvi dəyərlərə baxış və psixologiya kəskin dəyişib. Əsas problem konkret olaraq mənəvi derqdasiyadadır, hansı ki, qlobal dairələr, Qərb hökumətləri durmadan bu mənəvi deqradasiya üçün yüz milyardlarla vəsait xərcləyirlər. Nəticədə, mənəvi dəyərlər çökür, ailə institutu dağılır, eqozim və narsizm artır, düşüncə zombiləşir, nigahdankənar əlaqələr, fahişəlik, əxlaqsızlıq artır, gənclər ancaq öz əyləncəsi üçün yaşamağa başlayır.

Ailənin əvəzinə "vətəndaş nigahı" kimi bəzəkli ad qoyulmuş əxlaqsızlığı təbliğ edəndə nə gözləyirdilər ki? Erkən evliliyə qarşı mübarizə adı altında gənclərin mümkün qədər gec evlənməsini təbliğ edəndə və bunun ən normal müasir həyat tərzi olduğunu deyəndə necə olmalı idi? 16 yaşlı qızların çoxsaylı kişilərlə cinsi əlaqədə olmasını normal qəbul edib, 17 yaşlı tam yetkin qızın ailə qurmasına mane olanda necə olmalı idi ki? Təbii qidaları məhv edib, insanlara sonsuzluq yaradan süni kimyəvi qidaları, GMO məhsulları yedirdəndə nə gözləyirdilər ki? Süni həyat tərzinin təbliği necə nəticə verməli idi ki?

Məsələ sosial-iqtisadi faktorlarda olsaydı məhz yoxsul ölkələrdə boşanma daha az olmazdı, ailələr daha möhkəm olmazdı, uşaq doğumu daha çox olmazdı. Məhz inkişaf etmiş ölkələrdə boşanmalar maksimumda, evlənləmər minimumda, uşaq doğumu yoxa çıxmış haldadır. Eləcə də, müxtəlif ölkələrdə aparılmış sosioloji araşdırmalar göstərir ki, məhz imkanlı ailələrdə uşaq doğumu daha az olur, aşağı maddi imkanlı ailələrdə isə çox olur.

Azərbaycanın yaxın tarixinə baxsaq, bunu əyani sürətdə görə bilərik. Xalqımızın ən ağır sosial vəziyyətlərində Böyük Vətən Müharibəsi dövrlərində və 90-cı illərdə boşanmalar minimum idi, evlənmə halları da, uşaq doğumu da yüksək idi. Lakin sonralar sosial-iqtisadi vəziyyət yaxşılaşsa da bu problem yarandı və getdikcə də kəskinləşir. Çünki, azadlıq və müasirlik adları altında dəyərlərimiz dəyişdirildi, mənəvi deqradasiya getdi. Boşanma işini aparan vəkillər, hakimlər deyirlər ki, boşanmaların 90 faizindən çoxu maddi deyil, mənəvi səbəblərlə bağlıdır. Eyni zamanda azuşaqlı ailələrin 90 faizdən çoxu imkanlı ailələrdir, çoxuşaqlı ailələrin isə az qala hamısı azimkanlı ailələrdir. Bu qədər fakt göstərir ki, əsas səbəb mənəvi deqradasiyadır. Mənəvi dəyərlərə tüpürməyin nəticəsi budur.

Lakin bu o demək deyil ki, yeganə səbəb mənəvi deqradasiyadır. Sosial problemlərin də əhəmiyyətli rolu var. Bir çox demoqrafların və sosioloqların fikrincə, bəzi tədbirlər müəyyən qədər müsbət təsir göstərə bilər. Məsələn, işləyən insanlar məhdud dərəcədə olsa da, ikinci uşağın və sonrakı uşaqların doğulması üçün ciddi məbləğdə birdəfəlik yardım və aylıq ödənişlər alımalıdırlar.

Qlobal Yaşlanma İnstitutu qeyri-hökumət təşkilatının rəhbəri Riçard Ceksonun sözlərinə görə, doğum nisbəti azalan kimi cəmiyyətdə dəyərlərə yenidən baxılır. Və bu proseslərə təsir etmək çox çətindir.

"Qohumlarınız, həmkarlarınız və qonşularınız arasında nə qədər az uşaq görsəniz, bütövlükdə sosial mühit mənfiyə doğru bir o qədər dəyişir"- o deyir.

Qeyd etmək lazımdır ki, ailələrin dəstəklənməsi və uşaq doğumunun stimullaşdırılması təkcə bu sahədə problemlər yaşayan ölkələr üçün xarakterik deyil. Məsələn, ailələrə yardımlar və uşaqpulu ödənişləri bu sahədə heç bir problemi olmayan, Qətər, Küveyt, BƏƏ, Bruney kimi ölkələrdə daha yüksək səviyyədədir. Onlarda hesab edirlər ki, ölkənin gəlirlərindən möcvud ailələr və uşaqların daha çox bəhrələnməsi vacibdir. Yəni, bu vəsaitlər uşaq doğumunu artırmaq üçün deyil, uşaqların daha yüksək səviyyədə böyüdülməsi və inkişafı üçün ayrılır.

Beləliklə, aydın olur ki, sosial dəstək proqramları tam olmasa da müəyyən effekt verir. Lakin bununla yanaşı cəmiyyətin sağlam mənəvi dəyərlər sistemi ilə yaşamasının təsiri əvəzedilməzdir. Ailə institutunun əsas dəyərlərdən sayılmadığı, boşanmaların faciə kimi qəbul olunmadığı ölkələrdə sosial dəstək proqramı təkbaşına problemi həll edə bilməz.

Bununla belə, bir çox ekspertlər deyirlər ki, pronatalizmlə bağlı bütün sirlər və ziddiyyətlər ondan imtina etmək üçün səbəb deyil. Hər bir halda hökumətlər problemi həll etmək istəyirlərsə, 2 istiqamətdə ciddi işləməlidirlər- mənəvi dəyərləri qorumaq, sosial dəstək proqramları tətbiq etmək. Uşaqpulunun verilməsi burada ən vacib tədbirlərdəndir.

Azərbaycanda son onilliklərdə evliliklərin və uşaq doğumunun ciddi ölçüdə azalması, boşanmaların 50 faizə çatması tezliklə ciddi demoqrafik problemlərin yaranacağını göstərir. Bu səbəbdən də hökumət həm ailələrə sosial dəstək proqramı həyata keçirməlidir, həm də milli mənəvi dəyərlərin qorunmasını təmin etməlidir.

***Elçin Bayramlı***
***Sağlam Cəmiyyət Hərəkatının rəhbəri***

SƏS
20 noyabr
2024-cü il

# Brüs Linin müəmmalı ölümü 51 ildən sonra AÇILDI!



***Brüs Linin müəmmalı ölümü 51 ildən sonra açılıb. Musavat.com xarici mediaya istinadən xəbər verir ki, ispaniyalı həkimlərin sözlərinə görə, ölüm səbəbi nə ağrıkəsici dərman, nə də mafiyanın sifarişi olub, əsas səbəb su olub.***

Madrid Elmi İnstitutundan Priskilla Vilyavalso və onun komandası bu barədə Clinical Kidney Journal jurnalında məqalə dərc edib. Onlar Brüs Linin ölümündən sonra aparılan yarılma məlumatlarını təhlil edərək XX əsrin ortalarının ”əjdahası”nda nadir xəstəlik – hiponatremiya aşkar ediblər. Bu xəstəlik böyrəklərin orqanizmdən artıq suyu çıxara bilməməsi ilə xarakterizə olunur. Sadə dildə desək, onun beynində həddindən artıq maye yığılıb.

Onların fikrincə, məhz bu, 20 iyun 1973-cü ildə Brüs Linin beyninin şişməsinə səbəb olub. Nə hansısa quldurların sifarişi, nə də baş ağrısı üçün qəbul edilmiş bir həb və digər konspirasiya nəzəriyyələri buna səbəb olub. Aktyor və Jeet Kune Do ustası öz müsahibələrindən birində çox su içdiyini və suyun onu ruhlandırdığını bildirmişdi. Bu fraqment Basta və Gufun məşhur ”ÇP” mahnısı sayəsində də tanınıb.

# Ən sürətli futbolçuların adları açıqlandı – siyahıda kimlər var?



Futbol üzrə İngiltərə Premyer Liqasında ən sürətli futbolçuların siyahısı açıqlanıb. Siyahıya ”Tottenhem”in futbolçusu Mikki Van de Ven (37,12 km/saat) başçılıq edir. İlk ”üçlüy”ə həmçinin ”Mançester Siti”dən Mateus Nunes (36,72 km/saat), ”Vulverhempton”dan Karlos Borqes (36,57 km/saat) daxil edilib.

”Mançester Siti”nin hücumçusu Erlinq Holann (35,74 km/saat) 6-cı pillədə qərarlaşıb.


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Bu il 40 min şəxsə əlillik təyin olunub



***“Bu il artıq 40 min şəxsə əlillik təyin olunub. Bunun yarısı ilkin əlillikdir". Bu barədə Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya, Əmək və sosial siyasət, Səhiyyə, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin birgə keçirilən iclasında Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib.***

Nazir bildirib ki, reabilitasiya təyin olunan xəstələrdə əlillik müddətli təyin olunur: ”Müddət bitəndə vətəndaşlar yenidən müraciət etməlidir. Vətəndaşlar yerlərdə tibb müəssisələrinə müraciət edirlər. Tibb müəssisələri analizlər götürür, uyğun bilirsə, ona forma verir. Uyğun bilmirsə, vermir, yəni imtinanı tibb müəssisələri verir. Yerlərdə bizim nazirliyimiz əlilliklə bağlı qiymətləndirmə aparmır”.


Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700